

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 50 (8643) CÜMƏ, 5 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr verir

## İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib

Martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda videoformatda çıxış edib.

Zirvə toplantısına sədrlik edən Pakistanın Baş naziri **İmran Xan** əvvəlcə sammit iştirakçılarını salamladı və Azərbaycanın Qələbəsi münasibətilə təbriklərini çatdıraraq dedi:

- Mən Azərbaycanın işğal olunmuş ərazilərinin müvəffəqiyyətlə azad edilməsi münasibətilə Prezident İlham Əliyevi xüsusilə təbrik etmək istəyirəm.

Pakistanın Baş naziri belə çətin bir zamanda Zirvə toplantısının təşkilinin birgə səylər sayəsində mümkün olduğunu qeyd etdi. Pakistan hökumətinin başçısı çıxışında təşkilata üzv ölkələr arasında ticarət əlaqələrinin inkişafının vacibliyini vurğuladı.

Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** ölkəsinin təşkilata sədrliyi dövründə görülən işlərdən danışdı. O, bir çox sahələrdə tənəzzülə səbəb olan pandemiyaya yalnız həmrəylik, regional əməkdaşlıq sayəsində qalib gəlməyin mümkün olduğunu qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın işğal altında qalan torpaqlarını uğurla azad etdiyini bildirərək dedi:

- Qardaşımız Azərbaycan erməni işğalı altındakı torpaqlarını şanlı bir Zəfərlə azad etmiş, bölgədə yeni bir dövrün qapılarını açmışdır. Bundan sonra hədəfimiz Qarabağda təhlükəsizlik və sabitliyin formalaşmasına yardım etmək, 30 illik işğalın fəsadlarını birlikdə aradan qaldırmaqdır. Bu prosesdə də təşkilat olaraq Azərbaycan ilə tam həmrəylik içində olacağımıza inanıram. Ermənistanın da atacağı sülhsevər addımlarla regional sabitliyin bir hissəsi olacağına ümid edirik. Xalqın iradəsini heçə sayan antidemokratik müdaxilələri əsla qəbul etmədiyimizi və etməyəcəyimizi burada təkrarlamaq istəyirəm.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi **Hadi Suleymanpur** qarşıda duran vəzifələrdən danışaraq təşkilat çərçivəsində iqtisadi-ticari əlaqələrin inkişafının prioritet olduğunu vurğuladı.

*Ardı 2-ci səh.*

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Hərbi helikopterin qəzaya uğraması nəticəsində türk əsgərlərinin şəhid olması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, şəhid olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2021-ci il*

## Qarabağ həqiqətlərini boğmaq mümkün deyil

### Xüsusən də onun İlham Əliyev kimi carçısı varsa

Prezident İlham Əliyevin xarici KİV-ə 44 günlük Vətən müharibəsi ərzində verdiyi 30-dan artıq müsahibə və Qələbədən sonra xarici və yerli mətbuat təmsilçiləri üçün bir neçə gün əvvəl keçirdiyi mətbuat konfransı bir daha onu təsdiq edir ki, Azərbaycan informasiya müharibəsində də erməni təbliğat maşınını darmadağın edir.

Xatırladaq ki, bəzi xarici KİV-in təmsilçiləri aldıqları müsahibələrdə Azərbaycanı işğalçı tərəf kimi qiymətləndirməkdən belə, çəkinmirdilər. Onlar sanki müsahibə almağa yox, bütün həqiqətləri inkar etməyə və işğalçı Ermənistanın məkrli maraqlarını qorumağa gəlmişdilər.

Prezident, Ali Baş Komandan bu cür müsahibələrdən, əlbəttə ki, imtina edə, onları təxirə sala bilərdi. Lakin dövlət başçısı hamıya kifayət qədər vaxt ayırır, bütün suallara səbirlə ətraflı cavab verir, Azərbaycanın ədalətli mövqeyini sonadək müdafiə edirdi. İlham Əliyev xarici jurnalistlərin açdığı ideoloji cəbhədəki bütün həmlələri asanlıqla dəf edir, tutarlı arqumentlər, ciddi tarixi faktlar və dərin diplomatik gedişləri ilə Azərbaycan həqiqətlərini xarici müxbirlərin öz ana dillərində səlis izah edirdi.

*Ardı 4-cü səh.*

## Müstəqil siyasətin təcəssümü

Dövləti dünyada tanıdan, nüfuzuna təsir edən bir çox amilləri sadalamaq mümkündür. İlk növbədə iqtisadi inkişafına, qlobal məsələlərdə iştirak səviyyəsinə və yürütdüyü siyasətin məzumununa görə dövlətlər regional və beynəlxalq miqyasda söz sahibinə çevrilirlər. Tarix və beynəlxaq münasibətlərin mənzərəsi göstərir ki, böyüklüyündən və kiçikliyindən asılı olmayaraq nüfuz sahibi olmaq dünya birliyinin hər bir üzvünün özündən asılıdır.

### Azərbaycanın söz sahibi olması beynəlxalq aləmdə qəbul edilən reallıqdır

Dünya birliyinin bütün subyektləri söz və ehtiram sahibi kimi fərqlənmək istəyir, lakin bu, heç də hər dövlətə müyəssər olmur. Bu kontekstdən yanaşaraq deyə bilərik ki, yerləşdiyi regionun lider dövləti olan, bu statusunu ildən-ilə daha da möhkəmləndirən Azərbaycanın həm də beynəlxalq birliyin söz sahiblərindən biri olması bütün dünyada qəbul edilən reallıqdır.

Azərbaycan buna birdən-birə nail olmayıb və hər bir beynəlxalq uğurunun kökündə aparılan siyasətin məzmunu, beynəlxalq məsələlərdə nümayiş etdirilən qətiyyətli mövqe dayanır. İlk növbədə onu qeyd edək ki, Azərbaycan dövlətinin yürütdüyü xarici siyasət və beynəlxalq münasibətlərə dair mövqeyi tamamilə müstəqildir. Bir çox dövlətləri misal göstərmək olar ki, müstəqildir, amma beynəlxalq məsələlərdə öz mövqeyi yoxdur və hansısa xarici dairələrin təsirləri altındadır. Ermənistanın timsalında bunu aydın görmək mümkündür və müstəqil dövlət olsa da, asılıdır, özünün sərbəst siyasəti, mövqeyi yoxdur.

*Ardı 2-ci səh.*

## Koronavirusa qarşı qorunma tədbirləri davamlı şəkildə həyata keçirilməlidir

Dünyada koronavirus pandemiyasının davam etdiyi bir zamanda bütün ölkələrdə diqqətlər vaksinasiya prosesinə yönəlib. Azərbaycan da daxil olmaqla, bir sıra ölkələrdə bu prosesə bir neçə aydır start verilib.

Azərbaycan Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkədir. Respublikada COVID-19 əleyhinə vaksinasiyaya yanvarın 18-də tibb işçilərinin peyvəndlənməsi ilə başlanılıb və bütün rayonlarda uğurla davam edir.

Fevralın 8-dən yaşı 65-dən yuxarı, fevralın 17-dən etibarən 50 yaş və daha yuxarı şəxslərin vaksinasiyası həyata keçirilir. Artıq Azərbaycanda risk qrupuna daxil olan səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər, həkimlər, polislər vaksinasiya olunub.

Hazırkı dövrədək ölkəmizdə 337 min 315 nəfər COVID-19 əleyhinə qarşı peyvəndlənmə prosesində iştirak edib.

*Ardı 6-cı səh.*




## Dəmir yumruğun Zəfər salnaməsi

### İlham Əliyevin Müzəffər Ordusu şanlı qələbəsi ilə dünyanın ən güclü, müasir silahlı qüvvələri arasında layiqli yer tutduğunu sübuta yetirdi

Azərbaycan Ordusu!..
Bu ifadənin mahiyyətindəki əzəmət artıq onun faktiki mövcudluq qüdrəti ilə tamamlanır. İndi Silahlı Qüvvələrimizin Cənubi Qafqazın ən sivil, modern və hazırlıqlı hərbi gücünə çevrilməsinin iftixarını yaşayırıq.




Hər bir Azərbaycan vətəndaşının ordumuzla fəxr etməyə haqqı var. Çünki 44 günlük Vətən müharibəsindəki şanlı qələbə bütün dünyaya ordumuzun qüdrətini bir daha nümayiş etdirdi.

Şanlı qələbədən bir neçə ay ötməsinə baxmayaraq, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusunun şanlı döyüş yolunun, zəfər yürüşünün parlaq qələbəsinin sevincini hələ də qürurla yaşamaqdayıq. Ordumuzun keçirdiyi hərbi əməliyyatlar həmişə müzakirə mövzusu olacaq. Axı, məhz bu ordu Vətən müharibəsində tarix yazdı, tarixə yazıldı...

*Ardı 4-cü səh.*

## Paşinyan müxalif liderləri həbs etdirir

Ermənistanda daha da gərginləşməkdə olan vəziyyətin qanlı nəticələrə gətirib çıxara biləcəyi istisna edilmir. Müxalifət heç nəyə nail ola bilməsə də, küçələrdən çəkilmir. Baş nazir Nikol Paşinyan isə müxalifətin zəifliyinin və xalqdan dəstək ala bilməməsinin fərqindədir. Ona görə indi daha sərt şəkildə müxalifət liderlərinin üstünə gedir.

Bunu müxalifətin baş nazir vəzifəsinə namizədi Vazgen Manukyana qarşı cinayət işinin açılması da göstərir. Ermənistanın İstintaq Komitəsi tərəfindən Manukyana Cinayət Məcəlləsinin 301-ci maddəsi ilə (hakimiyyətin zorla ələ keçirilməsinə çağırışlar) ittiham irəli sürülüb. Qeyd olunub ki, Manukyan bu il fevralın 12-də və 20-də Azadlıq meydanında keçirilən mitinqlərdə açıq şəkildə konstitusiya quruluşunun zorla dəyişdirilməsinə çağırış edib. Buna görə müxalif liderinə üç ilə qədər həbs cəzası verilə bilər.

Vazgen Manukyana ölkəni tərk etmək qadağası da qoyulub. Paşinyan ictimai asayiş qaydalarını günlərdir pozanların, hakimiyyətin zorla dəyişdirilməsinə qarşı çıxanların əməllərinə hüquqi qiymətin verilməsində israrlıdır.

Manukyan isə əvəzində hökuməti təhdid edib. "Əgər müharibə istəyirlərsə, onu alacaqlar" deyib. O əlavə edib ki, Paşinyan silahlı qüvvələrin baş qərargah rəisi Onik Qasparyanı istefaya göndərmək qərarından dönməsə, ordu hökumətə itaət etməyəcək.

*Ardı 5-ci səh.*

# Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr verir

## İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib






*Əvvəli 1-ci səh.*

Baş katib investisiyaların stimullaşdırılması zərurətindən danışdı, pandemiya ilə mübarizədə kollektiv səylərin əhəmiyyətini vurğuladı. Hadi Suleymanpur Azərbaycanı parlaq Qələbəsi münasibətilə təbrik edərək dedi:

- Mən mərhum Prezident, zatilaliləri Heydər Əliyevin təşəbbüsü olan Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin yaradılmasına görə Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyevi təbrik edirəm. Bu, təşkilatı çoxşaxəli etmək məqsədilə İƏT ailəsi üçün böyük bir nailiyyətdir. Gəlin Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda həyatlarını qurban vermiş azərbaycanlı şəhidlərin xatirəsini də yad edək.

Sonra Əfqanıstan Prezidenti **Məhəmməd Əşrəf Qani** çıxış edərək dedi:

- Mən tarixi nailiyyət münasibətilə qardaşım Prezident Əliyevi təbrik etməkdən məmnunluq hissi duyuram. Azərbaycan xalqı kimi atanız da Sizinlə fəxr edərdi.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələrin baxışlarının həyata keçirilməsi üçün mühüm platforma olduğunu deyən **Məhəmməd Əşrəf Qani** pandemiyanın mənfi təzahürlərinin minimuma endirilməsi üçün regional əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini dedi.

Prezident **Rəcəb Tayyib Ərdoğan:** Əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti, mənim qardaşım İlham Əliyevə söz verməndən öncə deyim ki, həqiqətən də 30 illik işğal baş vermişdir və orada olan milyonlarla azərbaycanlı qardaşımız, bildiyiniz kimi, öz torpaqlarından qovulmuşdur. Onlar təxminən 30 il idi ki, öz doğma torpaqlarından uzaqda yaşayırdılar. Əfsuslar olsun ki, Minsk qrupu heç bir nəticə əldə edə bilməmişdir və buna görə İlham Əliyevin rəhbərliyi ilə bizim azərbaycanlı qardaşlarımız bu torpaqları işğaldan azad etmişdir. İndi infrastruktur üzrə hazırlıq işləri davam edir və tezliklə bu torpaqların həqiqi sahibləri öz ərazilərində yaşayacaqlar. İndi isə sözü, mənim əziz qardaşım, Azərbaycan Prezidenti hörmətli İlham Əliyevə verirəm. Söz sizindir.

### Prezident İlham Əliyevin çıxışı

- Əziz qardaşım, əziz Prezident cənab Ərdoğan.

Mənə söz verdiyiniz zaman səsləndirdiyiniz fikirlərə görə Sizə təşəkkür edirəm.

Bütün həmkarlarımızın diqqətinə çatdırmaq istərdim ki, Prezident Ərdoğanın yalnız müharibə vaxtı deyil, ümumiyyətlə, Türkiyənin Prezidenti və lideri olduğu müddətdə Azərbaycana davamlı dəstəyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsində mühüm rol oynamışdır.

Türkiyə bizim qardaşımızdır. Türkiyə bizim böyük müttəfiqimizdir. Azərbaycan xalqı Türkiyə kimi müttəfiqi olmasından çox məmnundur. Azərbaycan və Türkiyə xalqları və əminəm ki, dünyada bir çoxları Prezident Ərdoğanın Türkiyənin yalnız dünyada ən önəmli güc mərkəzlərindən birinə çevrilməsində deyil, eləcə də regionda təhlükəsizliyin təmin edilməsindəki tarixi rolundan açıq şəkildə xəbərdardırlar. Türkiyə geniş regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında çox önəmli rol oynayır. Əvvəllər də çox demişəm, indi də bir daha bildirmək istərdim ki, Türkiyənin güclü olması Azərbaycan və bütün digər müttəfiqlərin də güclü olması deməkdir.

Hörmətli cənab sədr, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli cənab baş katib.

Əvvəlcə, mən bir daha əziz qardaşlarıma, Prezident Ərdoğana, Prezident Əşrəf Qaniyə, Baş nazir İmran Xana Azərbaycanın Qələbəsi və ərazi bütövlüyünü bərpa etməsi münasibətilə səsləndirdikləri xoş təbriklərə görə təşəkkürümü bildirmək istərdim.

Qardaş Türkiyəni İqtisadi Əməkdaşlıq Təşkilatında uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim. Yeni sədr ölkə kimi qardaş Türkmənistana uğurlar arzulayıram.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verir. Bu gün burada İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin nizamnaməsini imzalayacağıq. Biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünü dəstəklədiklərinə görə üzv dövlətlərə minnətdarıq və Azərbaycanda yerləşəcək mərkəzin səmərəli fəaliyyəti üçün əlimizdən gələni edəcəyik.

2020-ci ildə Azərbaycan öz torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına hərbi-siyasi yollarla son qoydu. Ermənistan üzərində döyüş meydanında əldə edilmiş hərbi Zəfər siyasi yollarla tam təmin edildi.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri 27 il kağız üzərində qalmışdı. Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi.

Müharibə başlayan kimi bizi dəstəkləyən ilk ölkə qardaş Türkiyə oldu. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıqlamalarını və onun siyasi və mənəvi dəstəyini yüksək qiymətləndiririk.

Ötən il sentyabrın 27-də və 28-də - müharibənin birinci və ikinci günü qardaş Pakistan və Əfqanıstan Ermənistanı işğala son qoymağa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini icra etməyə çağırmış və Azərbaycanın ərazi bütövlüyünə öz dəstəklərini ifadə etmişlər. Mən bizi dəstəklədiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm. Eyni zamanda müharibə dövründə bizi dəstəkləyən ölkələrin dövlət və hökumət başçılarına da təşəkkür edirəm.

İşğal zamanı Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın kənd və şəhərlərini, bütün mədəni və dini abidələrini qəsdən dağıtmışdır. Bizim məscidlər donuz və inək saxlanılan yerlərə çevrilmişdir. Bütün bunların foto və videoları internetdə var. Bu, bütün islam dünyasına qarşı düşmənçilikdir. Azərbaycan xalqının mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi faktları beynəlxalq media nümayəndələri tərəfindən əks etdirilmişdir. Bütün müsəlmanların hisslərini təhqir edən Ermənistanın müsəlman ölkələri ilə əlaqələrini genişləndirmək cəhdləri riyakarlıqdan başqa bir şey deyil. Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr vermişdir. Biz müxtəlif beynəlxalq kürsülərdən islam ölkələrini birliyə çağırmışıq. Azərbaycan islam dininin zorakılıq və terrorla əlaqələndirilməsini kəskin şəkildə pisləyir. Biz islamofobiyaya qarşı mübarizə aparmalı və islamın həqiqi dəyərlərini - sülh, tolerantlıq və ədaləti təşviq etməliyik. Bu mənada, qardaş Pakistanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının martın 15-nin Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü elan olunması qərarını alqışlayırıq.

Hazırda qarşımızda azad olunmuş ərazilərin yenidən qurulması kimi nəhəng vəzifə dayanır. Biz azad olunmuş ərazilərdə şəhər və kəndlərimizi yenidən quracağıq, mədəni və dini abidələrimizi bərpa edəcəyik.

Azərbaycan COVID-19 pandemiyası ilə mübarizədə qlobal səyləri səfərbər edən ilk ölkələrdən olmuşdur. Azərbaycan ötən il hazırda sədrlik etdiyi iki beynəlxalq təşkilatın - Türk Şurası və Qoşulmama Hərəkatının Zirvə toplantıları, eləcə də BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsinin təşəbbüskarı olmuşdur. Bu təşəbbüslər bizim beynəlxalq həmrəyliyə və əməkdaşlığa sadiqliyimizi bir daha nümayiş etdirmişdir.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edirik. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə yardımı etmişik. Azərbaycan koronavirusla əlaqədar dünyanın 30-dan artıq ölkəsinə humanitar və maliyyə yardımı edib.

Azərbaycan yanvar ayının 18-dən peyvəndləmə prosesinə başlayıb. Biz regionda peyvəndləməyə start vermiş ilk ölkələrdən biriyik. Biz vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında qeyri-bərabər və ədalətsiz şəkildə bölünməsini pisləyirik. Bəzi ölkələr özlərinin ehtiyacları ilə müqayisədə bir neçə dəfə çox həcmdə vaksin alır. Aydındır ki, belə olduğu təqdirdə, bəzi ölkələrə peyvənd çatmayacaq.

Azərbaycan bu məsələ ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından qətnamə layihəsi ilə çıxış etməyi planlaşdırır və mən İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini həmin təşəbbüsü dəstəkləməyə dəvət edirəm.

Azərbaycan Avrasiyada enerji təhlükəsizliyini təmin edən mühüm tərəfdaş ölkədir. "Cənub qaz dəhlizi" 2020-ci il dekabrın 31-də istismara verildi. Yeddi ölkəni birləşdirən 3500 kilometr uzunluğunda "Cənub qaz dəhlizi" dünyanın ən böyük enerji infrastrukturu layihələrindən biridir.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir və ölkəmiz Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Biz öz tərəfdaşlarımızla birgə Azərbaycanın nəqliyyat infrastrukturunu Lapis Lazuli nəqliyyat dəhlizi ilə birləşdirdik və nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaratdıq.

Artıq qeyd etdiyim kimi, Azərbaycanın Ermənistan üzərində şanlı Qələbəsindən sonra Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı.

Biz indi gələcək haqqında düşünürük. Biz bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkələri birləşdirən nəqliyyat layihələrini müzakirə etməyə başlamışıq. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Ermənistan da özünü normal aparsa, bu prosesdən faydalana bilər.

Bu xüsusda qeyd etmək istərdim ki, Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edirik.

Diqqətinizə görə sağ olun.

Prezident **Rəcəb Tayyib Ərdoğan:** Mənim əziz qardaşım, çox dəyərli fikirlərinizə və mülahizələrinizə görə çox sağ olun. Siz bu problemli və ağrılı dövrü uğurla geridə qoymusunuz. Bu günləri arxada qoyduğunuzu görməyə çox şadıq. İndi isə Dağlıq Qarabağdakı torpaqların sahiblərinin öz doğma yurdlarına qayıtmasını təmin etmək vaxtıdır.

Daha sonra Türkmənistan Prezidenti **Qurbanqulu Berdiməhəmmədov,** İran İslam Respublikasının Prezidenti **Həsən Ruhani,** Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev,** Qırğızıstan Prezidenti **Sadır Japarov,** Tacikistan Prezidenti **Emoməli Rahmon,** Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev,** Türk Şurasının Baş katibi **Bağdad Amreyev,** Şimali Kiprin Prezidenti **Ersin Tatar** və Beynəlxalq Enerji Xartiyasının Baş katibi **Urban Rusnak** çıxış etdilər.

Sonda İqtisadi Əməkdaşlıq Təşkilatının Araşdırma Mərkəzinin Nizamnaməsi imzalandı.

Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti Zirvə toplantısı Türkmənistanda keçiriləcək.

# Müstəqil siyasətin təcəssümü

## İlham Əliyev Vətən müharibəsində qazandığı Qələbə ilə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltdi

*Əvvəli 1-ci səh.*

Xarici siyasətdə elə bir fakt göstərmək mümkün deyil ki, orada erməni dövlətinin özünün müstəqil mövqeyi hiss olunsun. Bu ölkənin daxili siyasətinin konturları da kənarda müəyyən olunur, hətta iqtisadi sferada belə müstəqil qərarlar qəbul etmək imkanından məhrumdur.

Respublikamız isə tamamilə fərqli siyasi kursu ilə tanınır. Azərbaycan o dövlətdir ki, hələ 1994-cü ildə Heydər Əliyevin siyasi müdrikliyi ilə özünün milli maraqlarına cavab verən "Əsrin müqaviləsi"nin imzalanmasını təmin etmişdi. Bir çoxlarına adi görünsə də, o zaman müstəqilliyinin bərpasının heç 3-cü ili tamam olmayan dövlətimizin belə bir müqavilənin imzalanmasına nail olması olduqca böyük siyasi hadisə idi.

İndi Azərbaycan bir neçə marşrutla Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarır. Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi enerji strategiyasını növbəti mərhələyə yüksəltməklə Azərbaycana daha yeni imkanlar qazandırdı. Bu gün Azərbaycan tək neft deyil, həm də təbii qazını dünya bazarlarına çıxarmaqla enerji məsələlərində böyük rol oynayır. Müstəqil siyasəti, özünün yolu olmayan dövlət buna nail ola bilməzdi.

### İlham Əliyev problemin güc yolu ilə həllinə qarşı çıxanları da məğlub etdi

Hər bir regionda siyasi-iqtisadi mübarizənin elementlərindən biri də dünyaya əlverişli tranzit imkanların təqdim olunmasıdır. İlham Əliyevin yürütdüyü müstəqil və düşünülmüş siyasətin nəticəsidir ki, Azərbaycan regionun aparıcı tranzit qovşağına çevrilib. Bakı-Tbilisi-Ceyhan kimi meqalayihənin həyata keçirilməsi yalnız və yalnız müstəqil siyasətin, müdrik zəkanın məhsulu ola bilərdi.

Beynəlxalq siyasi məsələlərdə də Azərbaycanın müstəqil mövqeyi dünyaya yaxşı tanışdır. Respublikamız hələ illər öncə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, iki il müddətində dünyada sülhə və təhlükəsizliyə layiqli töhfələr vermişdi. Bakı şəhəri isə artıq uzun müddətdir ki, beynəlxalq tədbirlər mərkəzi statusunu daşıyır. Rusiya və ABŞ, Rusiya və NATO hərbi komandanları arasında keçirilən məsləhətləşmələr format etibarilə generalların görüşü olsa da, mahiyyət baxımından həm də siyasi məsələdir. Bu görüş üçün məkan olaraq Bakının seçilməsi sıradan bir məsələ deyil və ilk növbədə, Azərbaycana olan yüksək etimadın, respublikamızın qlobal məsələlərdə müstəqil mövqeyinin təcəssümüdür.

Qeyd olunanlar Azərbaycanın dünya birliyindəki yerini möhkəmləndirir, nüfuzunu artırır, onu qətiyyətli siyasət yürüdən dövlət kimi tanıdır. Bu uğurların müəllifi isə Prezident İlham Əliyevdir. Azərbaycanın milli və dövlət maraqlarını layiqincə təmin edən Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik gedişləri ölkəmizin mövqelərini davamlı olaraq gücləndirir.

Azərbaycan üçün yeganə problem torpaqlarının işğal altında olması idi. 30 ilə yaxın idi ki, problemə son qoyulması üçün beynəlxalq vasitəçilik missiyasının iştirakı ilə danışıqlar aparılsa da, nəticə yox idi. Bu prosesdə görünən o idi ki, Ermənistanın işğal siyasətinə haqq qazandırılırdı. Düşünürdülər ki, zaman keçdikcə Azərbaycan öz mövqeyindən əl çəkəcək, Ermənistanın maraqlarına uyğun kompromislərə gedəcək. Amma bir məsələni unudurdular ki, hələ zəif vaxtlarında belə, öz mövqeyindən bir addım geri çəkilməyən Azərbaycan gücləndikdə torpaqlarını işğaldan azad etmək üçün daha qətiyyətli, daha əzmkar olacaq.

Belə də oldu. İlham Əliyevin rəhbərliyi ilə nail olduğumuz inkişaf torpaqlarımızın azad ediləcəyi günü də yaxınlaşdırdı. Məlum olduğu kimi, ayrı-ayrı təşkilatlar, dövlətlər həmişə bildirirdilər ki, münaqişənin güc yolu ilə həlli mümkün deyil. Bununla Ermənistanı müdafiə edən beynəlxalq stereotip formalaşdırmağa çalışırdılar və müəyyən dərəcədə buna nail də olmuşdular. Lakin İlham Əliyev hər zaman bəyan edirdi ki, danışıqlar nəticə verməsə, torpaqlarımız güc yolu ilə işğaldan azad olunacaq. Beləliklə, 44 günlük müharibə İlham Əliyevin söylədiklərinin həyata vəsiqə qazanması ilə nəticələndi. Azərbaycan Prezidenti bu müharibədəki qələbə ilə problemin güc yolu ilə həllinə qarşı çıxanları da məğlub etdi, onların onilliklər boyu yaratdıqları stereotipləri darmadağın etdi.

Dünyanın müasir reallıqları və təcrübə göstərir ki, nisbətən kiçik ölkələrin ərazi problemi ətrafında yaranmış münaqişələri yoluna qoymaq asan məsələ deyil. Haqlı tərəfin ədalətsizliyə məruz qalması, işğalçıya dəstək göstərilməsi bu problemlərin acı reallıqlarıdır. Azərbaycan dünya erməniliyinin təsirləri altında bu cür ədalətsizliklərə məruz qalsa da, gücləndi və düzgün zaman seçərək öz haqqını təmin etdi. Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında dediyi kimi, Azərbaycan bu məsələni təkbaşına həll etdi.

Bu baxımdan Vətən müharibəsindəki Qələbə həm də Azərbaycanın müstəqil siyasətinin növbəti təcəssümü kimi tarixə düşdü. İlham Əliyev bu Qələbə ilə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltdi, mövqeyini daha da möhkəmləndirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in müzakirəsinə həsr olunmuş iclas keçirilib





Baş nazir Əli Əsədovun sədrliyi ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılmış komissiyanın ilk iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə imzalanmış sərəncamda hökumətə "2021-2025-ci illər üzrə Sosial-iqtisadi inkişaf strategiyası"nın hazırlanması ilə bağlı verilmiş müvafiq tapşırıqlar, habelə yaradılmış komissiyanın 10 alt işçi qrupunun fəaliyyət istiqamətləri, iş planları və onun koordinasiyası, hesabatlılıq və təşkilati məsələlər müzakirə olunub.

# Ceyhun Bayramovun Antonio Quterreşə məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun cari il fevralın 22-də BMT-nin Baş katibi Antonio Quterreşə ünvanlandığı, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin mina və digər partlayıcı sursatlar ilə kütləvi çirklənməsindən irəli gələn ciddi təhlükə və Ermənistanın minalanmış ərazilər ilə bağlı müvafiq məlumatı verməkdən imtina etməsinə dair məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məktubda münaqişədən sonrakı dövrdə Azərbaycanın azad edilmiş ərazilərində mina və digər partlayıcı sursatların mövcudluğunun azərbaycanlı hərbçilərin və mülki şəxslərin sağlamlığına ciddi təhlükə olduğu qeyd olunur. Bildirilir ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın imzalanmasından sonrakı dövrdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mina partlayışı nəticəsində 9 mülki şəxs daxil olmaqla 15 vətəndaş həyatını itirib və 8 mülki şəxs daxil olmaqla 65 vətəndaş ciddi yaralanıb.

Məktubda vurğulanır ki, Azərbaycanın azad edilmiş ərazilərinin minalarla kütləvi şəkildə çirklənməsi bu ərazilərdə geniş bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə ciddi maneələr yaradır.

Nazir Ceyhun Bayramov BMT Baş katibinin diqqətinə çatdırır ki, Ermənistan minalanmış ərazilər ilə bağlı dəqiq məlumatı verməkdən imtina etməklə beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini ciddi şəkildə pozur. Burada həmçinin vurğulanır ki, Ermənistan tərəfindən basdırılmış minaların insan həyatına son qoyması müharibə cinayətidir.

BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi ilə aşağıdakı keçiddən tanış olmaq olar: **https://undocs.org/a/75/778.**

# Milli Məclisdə gender bərabərliyinə dair dinləmə keçirilib



Martın 4-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanunun icra vəziyyəti: imkan və çətinliklər" mövzusunda dinləmə keçirilib. Tədbirdə Milli Məclisin deputatları, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan dövlətinin hadisələrə adekvat reaksiya verdiyini, bütün sahələrdə dövrün reallıqlarını nəzərə almaqla yeni çağırışlar, qərar və qanunlar qəbul etdiyini vurğulayıb. Buna misal olaraq hələ 15 il əvvəl - 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanunun qəbul edilməsindən danışıb. Qeyd edib ki, bu qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla kişi və qadınlara siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə bərabər imkanlar təsbit edir, ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addımdır. Bu qanunu qəbul etməklə Azərbaycan MDB-də və Avropa məkanında bir çox ölkələri qabaqlayıb. Həmçinin gender bərabərliyi haqqında qanun qəbul edildikdən sonra milli qanunvericilik bazası yenidən ekspertizadan keçirilib, bu qanundan irəli gələn zərurətə görə bir çox qanunlara, eləcə də məcəllələrə müvafiq əlavə və dəyişikliklər edilib.

Komitə sədri bildirib ki, lakin zaman keçdikcə yeni tələblər və çağırışlar meydana gəlib, mövcud qanunlara yenidən nəzər salmaq və qanunun tətbiqi təcrübəsində yaranmış boşluqları müəyyənləşdirmək zərurətə çevrilib. Həmçinin 2020-ci ilin dekabrında Milli Məclisdə ilk dəfə olaraq "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanuna dair hesabat dinlənilib. Həmin hesabatda qanunun icra mexanizminin təkmilləşdirilməsinə, sənədə bir sıra əlavə və dəyişiklik edilməsinə ehtiyac olduğu üzə çıxıb.

Çıxışının yekununda Hicran Hüseynova qanunla bağlı təkliflərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonra tədbirdə geniş məruzə edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova fikirlərini bildirib, "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanunun icrasında mövcud olan imkan və çətinliklər barədə danışıb. Qeyd edib ki, günün tələbləri baxımından bu qanunun yenilənməyə ciddi ehtiyacı var. Ötən 15 ildə beynəlxalq səviyyədə üzərimizə götürdüyümüz öhdəliklər, Azərbaycanın özünün inkişafından doğan məsələlər, bugünkü həyatımızın diktə etdiyi yeni məqamlar ciddi şəkildə nəzərə alınmalıdır. Zamanın və həyatımızda baş verən inkişafın qarşıya qoyduğu yeni tələblərə və çağırışlara cavab verməliyik. Pandemiya və müharibə dövrü bizə gender bərabərliyi sahəsindəki çətinliklərimizin nədən ibarət olduğunu göstərdi.

Bahar Muradova vurğulayıb ki, qanunların icrasına məsul olan bütün qurumların fəaliyyətində, tərtib etdikləri bütün hesabatlarda, apardıqları bütün təhlillərdə gender məsələsinə həssas yanaşma nümayiş etdirilməlidir. Bu, dayanıqlı inkişaf məqsədlərində də nəzərdə tutulub.

Sonra dinləmədə təhsil nazirinin müavini Firudin Qurbanovun "Təhsildə gender bərabərliyinin təmin olunması", daxili işlər nazirinin müavini İsmət Əliyevin "Hüquq mühafizə müstəvisində gender bərabərliyinin təmini", əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimovun "Əmək qanunvericiliyi sahəsində gender bərabərliyinin gələcək təminatları" mövzularında məruzələri dinlənilib. Məruzəçilər sözügedən qanunla bağlı bir sıra təkliflər irəli sürüblər.

Tədbirdə geniş müzakirələr aparılıb. Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitə üzvləri Sevil Mikayılova, Tamam Cəfərova və Könül Nurullayeva, "Təmiz Dünya" Qadınlara Yardim İctimai Birliyinin sədri Mehriban Zeynalova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov rəy və təkliflərini bildiriblər.

Müzakirələri parlamentin komitə sədri Hicran Hüseynova yekunlaşdırıb.

Dinləmədə Milli Məclisin deputatları Rauf Əliyev, Pərvin Kərimzadə, Ramin Məmmədov və Sədaqət Vəliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdirləri Taliyə İbrahimova və Kəmalə Ocaqova, İnsan Alverinə Qarşı Mübarizə Təşkilatı İctimai Birliyinin gender məsələləri üzrə koordinatoru Leyli Bayramova, Sağlam Həyat Naminə İctimai Birliyinin sədri Sədaqət Hüseynova, Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin sədri (Sumqayıt şəhəri) Zemfira Mustafayeva, Əlil Qadınlar Cəmiyyətinin sədri Məhluqə Rəhimova iştirak ediblər.

# İdmançılarımızın üzərinə daha böyük vəzifələr düşür

**"İdman sahəsində hər birinizin fəaliyyəti, gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər Azərbaycan idmanının adını, şanını-şöhrətini yüksəldir".**

**Heydər ƏLİYEV**



Martın 5-i Azərbaycanda "Bədən tərbiyəsi və idman günü" kimi qeyd edilir. Təqvimdə bu günün xüsusi önəm daşımasının səbəbi ölkəmizdə idman siyasətinin daim diqqət mərkəzində olması ilə əlaqədardır. Qeyd edim ki, Bədən tərbiyəsi və idman günü ölkə başçısı cənab İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən təsis edilib.

Bədən tərbiyəsi və idman günü kimi bu tarixin müəyyən edilməsinin səbəbi ona görədir ki, düz 26 il bundan əvvəl, yəni 1995-ci il martın 5-də Ümumilli Lider Heydər Əliyev Bakı İdman Sarayında Avropa və dünya çempionatlarının qalibləri, mükafatçıları ilə görüşmüşdü. Həmin görüşdən sonra idman sahəsində görülən işlərin daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizdə İdman Fondu təsis edilmişdi. İdman sahəsində görülən bu işlər eyni zamanda bədən tərbiyəsi və idmanın inkişafının əsasını təşkil etmişdi.

Ümumiyyətlə, bədən tərbiyəsi və idmanın inkişafı, gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə respublikamıza rəhbərliyə başlamasından sonra dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyi yaradılması, Ulu Öndərin gənclərlə görüşləri bu istiqamətdə uğurlu dövlət siyasətindən xəbər verirdi.

1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbərlik etməyə başlamasından sonra isə Azərbaycan idmanının inkişafında yeni mərhələ başladı. İdmanın inkişafı istiqamətində bütün zəruri addımlar atıldı, bölgələrdə olimpiya kompleksləri, idman zalları yaradıldı. İdmançılarımızın yerli və beynəlxalq yarışlara cəlb edilməsi istiqamətində zəruri addımlar atıldı.

Bu siyasət İlham Əliyev respublika Prezidenti seçildiklən sonra daha geniş vüsət aldı. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı, uğurlu idman siyasəti nəticəsində ölkəmiz dünyanın qabaqcıl idman ölkəsinə çevrildi. Görülən işlərin daha da səmərəliləşdirilməsi müsbət nəticəni qısa müddət ərzində göstərməyə başladı. İdmançılarımız olimpiadalardan ölkəmizə medallarla dönməyə başladı, hər dəfə qalib gələn idmançılarımızın səsləndirdikləri himnimiz, göylərə qalxan bayrağımız hər bir azərbaycanlının qüruruna səbəb oldu.

Ulu Öndər Heydər Əliyevin deyirdi: "İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaq". Ölkəmizdə həyata keçirilən mütərəqqi idman siyasəti nəticəsində Ulu Öndərin bu arzusu həyata keçdi. Prezident İlham Əliyevin diqqət və qayğısı idmanı ölkəmizdə kütləviləşdirdi. Belə ki, ölkəmizin idman sahəsində qazandığı uğurlarla yanaşı, paytaxtda və bölgələrdə yaradılan idman kompleksləri və idman bazaları idmanın kütləviləşməsinə gətirib çıxardı. İdman zallarında məşq etmək hər kəs üçün əlçətan oldu.

İdman sahəsində qazanılan uğurlardan başqa, ölkəmiz ən böyük idman yarışlarının yüksək səviyyədə təşkilatçısına çevrildi. İlkin olaraq I Avropa Oyunları yüksək səviyyədə təşkil edildi və bu Oyunların təşkili ilə bağlı ənənənin əsası qoyuldu. Bu yarışa evsahibliyi hüququnun ölkəmizə həvalə edilməsi Azərbaycanın dünyadan ən güclü idman ölkələrindən biri olaraq tanınmasına əsas verdi.

Növbəti dəfə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil edilməsi, habelə "Formula-1" kimi dünyanın diqqət mərkəzində olan yarışın ölkəmizdə keçirilməsi Azərbaycanın idman ölkəsi kimi nüfuzunu daha da yüksəltdi. Bu idman yarışlarının ən yüksək səviyyədə təşkili idmanı ölkəmizin brendlərindən birinə çevirdi. "Euro-2020" futbol çempionatının bəzi oyunlarının ölkəmizdə təşkili isə ən möhtəşəm futbol yarışlarının keçirilməsinə imkan verən stadionlarımızın olmasını bir daha diqqət mərkəzinə gətirir.

Son bir ildə dünyanı bürüyən pandemiyanın ən çox təsir etdiyi sahələrdən biri də idman sahəsi oldu. COVID-19 pandemiyasının II Dünya müharibəsindən bu tərəfə idmana vurulan ən böyük zərbə olmasına baxmayaraq, idmançılarımızın qalibiyyət missiyalarına uğurla davam edəcəyinə şübhə yoxdur.

İdmanın kütləviləşməsinin, gənc nəslin idmana marağının artırılmasının, habelə vətənpərvər ruhda tərbiyənin uğurlu nəticəsini həm də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Şanlı Ordumuzun qələbəsi göstərdi. Belə ki, hərbi qulluqçularımızın fiziki cəhətdən hazırlıqlı olmaları, onların göstərdiyi şücaət diplomatik müstəvidə aparılan uğurlu danışıqlarla vəhdət təşkil edərək qalibiyyətimizi təmin etdi. Hazırda Azərbaycan Ordusunun hərbi qulluqçuları dünyanın ən hazırlıqlı hərbçilərinin sırasında yer alırlar. Daha əvvəl idmançılarımız dəfələrlə Ermənistan nümayəndələrini idman yarışlarında məğlub etmişdilər. İndi isə onları həm də döyüş meydanında məğlub etdik və Zəfər bizim oldu.

İnanıram ki, idmançılarımız onlara olan etimadı daim doğruldacaq və 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin idman yarışlarında uğurla davam etməsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklər. Şanlı bayrağımızın beynəlxalq idman yarışlarında hər zaman dalğalanmasını görəcək, himnimizin səslənməsini eşidəcəyik.

***Adil ƏLİYEV,***
***Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri***

# MDB PA-nın elm və təhsil üzrə daimi komissiyalarının videokonfrans formatında iclasları baş tutub

Martın 4-də MDB Parlamentlərarası Assambleyasının elm və təhsil üzrə, həmçinin nəzarət-büdcə daimi komissiyalarının videokonfrans formatında iclasları keçirilib.





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qurumun elm və təhsil komissiyasının iclasında Milli Məclisin Elm və təhsil komitəsinin sədri, bu komissiyanın sədr müavini Bəxtiyar Əliyev və deputat, komissiyanın üzvü Kamilə Əliyeva iştirak ediblər.

İclasda komissiyanın təşkilati məsələlərinə baxılıb, "İntellektual fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması haqqında" model qanun layihəsi, "Tədqiqi və hazırlanması üçün əxlaqi standartlar da daxil olmaqla, süni intellektin istifadəsinin hüquqi tənzimlənməsinə dair" tövsiyələrin konsepsiyası təsdiq edilib.

"Elm və təhsil sahəsinin model qanunvericiliyinin perspektiv istiqamətlərinə dair" tövsiyələr layihəsinin müzakirəsində Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev müasir dövrün, pandemiyanın diktə etdiyi reallıqlara, o cümlədən distant təhsilin hüquqi tənzimlənməsinə diqqət çəkib, MDB PA-nın "MDB-yə üzv ölkələrdə distant təhsil haqqında" model qanununun yenidən işlənməsinin vacibliyini vurğulayıb. Məsələ ilə bağlı çıxış edən digər deputatların da təklif və iradları nəzərə alınıb.

"Birliyin uşaqları" beynəlxalq mədəni-təhsil tədris forumunun Əsasnaməsinin yeni redaksiyası ilə bağlı iclasın müzakirələrində Bəxtiyar Əliyev forumun vacibliyini vurğulayaraq təkliflərlə çıxış edib. Qazaxıstanın da təkliflərini və Belarusun iradlarını nəzərə alan komissiya sənədin yenidən işlənməsi ilə bağlı qərar qəbul edib.

Assambleyanın nəzarət-büdcə komissiyasının iclasında isə Milli Məclisin deputatı, MDB PA-da Azərbaycan nümayəndə heyətinin üzvü İqbal Məmmədov iştirak edib. Onlayn iclasda komissiyanın təşkilati işlərinə baxılıb, assambleyanın müxtəlif maliyyə öhdəlikləri və fəaliyyətinin digər təminatları ilə bağlı dəqiqləşdirmələr aparılıb. Həmçinin "MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleya Şurası Katibliyinin əməkdaşlarının sosial ödənişləri haqqında" Əsasnaməyə dəyişikliklər edilməsi, "MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının fəaliyyətinin maliyyələşdirilməsi haqqında" qətnamə layihəsi və digər məsələlər müzakirə edilib.

İclasda "MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleya Şurası Katibliyinin əməkdaşlarının sosial ödənişləri haqqında" Əsasnaməyə dəyişikliklərin yenidən işlənməsi qərara alınıb.

# Bələdiyyələrdə gənclərlə iş komissiyaları yaradılacaq

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı və bir sıra bələdiyyələrin gənclərdən ibarət təmsilçilərinin iştirakı ilə "Bələdiyyələrdə gənclərlə iş komissiyalarının yaradılması" mövzusunda onlayn görüş keçirilib.




AZƏRTAC xəbər verir ki, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Gənclər və idman komitəsinin üzvü Vüqar İsgəndərov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəis müavini Elmin Həsənov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov tədbirdə çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində hər bir azərbaycanlının, xüsusən də gənclərin milli birlik nümayiş etdirməsindən danışıblar. Çıxışlarda dövlət başçısının yürütdüyü çoxşaxəli gənclər siyasəti nəticəsində əldə olunan nailiyyətlərdən, həmçinin bələdiyyə üzvlərinin qanunvericilikdə nəzərdə tutulan hüquq və vəzifələrinin gənclər tərəfindən daha səmərəli yerinə yetirilməsinin vacibliyindən danışılıb, gənclərlə iş komissiyalarının yaradılması ilə bağlı praktiki təkliflər irəli sürülüb.

Onlayn görüşdə yerli özünüidarəetməni təmsil edən gənc bələdiyyə üzvləri də yeni komissiyaların yaradılması və fəaliyyət istiqamətləri barədə fikir mübadiləsində fəal iştirak edərək bu təşəbbüsün zamanın tələbi olduğunu bildiriblər.

Müzakirələr zamanı beynəlxalq təcrübə, o cümlədən qardaş Türkiyə bələdiyyələrində gənclərin iştirak etdikləri tədbirlər barədə məlumat verilib.

Yekunda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları bələdiyyələrdə gənclərlə iş komissiyalarının yaradılması ilə bağlı maarifləndirmə tədbirlərini mütəmadi davam etdirmələri qərara alınıb.



# Dəmir yumruğun Zəfər salnaməsi

## İlham Əliyevin Müzəffər Ordusu şanlı qələbəsi ilə dünyanın ən güclü, müasir silahlı qüvvələri arasında layiqli yer tutduğunu sübuta yetirdi

Əvvəli 1-ci səh.

### Ən mobil, ən yüksək döyüş hazırlığına malik ordu

Etiraf etməliyik ki, bu hazırlıq heç də asan başa gəlməyib. Prezident İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı, ordunun döyüş hazırlığı, maddi-texniki bazasının daim yenilənməsi və ən əsası, hər bir əsgərin döyüş əzminin yüksək olması hər zaman prioritet idi. Əgər belə olmasaydı, ilbəil orduya ayrılan vəsaitin həcmi artırılmazdı, maddi-texniki bazası gücləndirilməzdi, yeni-yeni silah-sursat və hərbi texnika alınmazdı. Məhz bütün bu proseslər sayəsində, həmçinin ölkədə hərbi sənayenin inkişafı ilə Azərbaycan Ordusu regionun ən güclü hərbi qüvvəsinə çevrildi. Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası, intellektual potensialı inanılmaz dərəcədə inkişaf etdi. Bütün bunlar istər yerli, istərsə də beynəlxalq hərbi ekspertlərin Azərbaycan Ordusunu Cənubi Qafqazda ən mobil, yüksək döyüş hazırlığına malik silahlı qurum kimi dəyərləndirməsinə zəmin yaratdı.

Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar da ordumuzun potensialını gücləndirdi. Son illər yaradılmış hərbi zavodlarda çoxsaylı hərbi təyinatlı məhsullar istehsal olunaraq ordumuz təchiz edildi. Bununla yanaşı, ən müasir texnika və silahlar alındı. Onların arasında yüzlərlə zirehli texnika, gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, müasir standartlara cavab verən sistemlər, onlarca döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri var. Bütün bunlar hərbi gücümüzü artırdı. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında seçilən nadir ölkələrdən birinə çevrildi.

Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrdə bütün istiqamətlərdə aparılan islahatlar öz bəhrəsini verdi. Ordumuz qarşıya qoyulan məqsədə doğru inamla irəlilədi. Bu uğurlu addımlar isə bizi Qarabağa apardı!

### Arxada qalan səngər savaşları...

Sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşında Azərbaycan Ordusunun zəfər yürüşü dünyaya səs saldı. Yeni hərbi taktika ilə Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb.

Nəzərə almalıyıq ki, düşmən təqribən 30 il ərzində müdafiə səddini xeyli möhkəmləndirmişdi. Müdafiə xətti, üstəgəl uzunmüddətli atəş nöqtələri, sığınacaqlar yaratmışdı. Dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmaq üçün çox böyük cəsarət, qorxmazlıq və peşəkarlıq tələb olunurdu. Azərbaycan Ordusu bunu bacardı və hər bir hərbçisi əsl qəhrəmanlıq göstərərək düşmənin müdafiə xəttini asanlıqla yara bildi.

Şuşa əməliyyatı bu gün də müzakirə mövzusudur. Hətta ermənilər indiyədək anlaya bilmirlər ki, Azərbaycan Ordusu bu həmləni necə həyata keçirib.

Fevralın 26-da İlham Əliyev keçirdiyi mətbuat konfransında dünyanın 35-dən çox media orqanının 50-yə yaxın sualını cavablandırarkən bu məsələyə də toxunmuşdu. Ali Baş Komandan dedi ki, hətta ermənilər əsgərlərimizin Şuşaya necə gedib çıxmağını hələ də başa düşə bilmirlər: “Şuşanın alınması ayrıca dastandır, bu, bir eposdur. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Hazırda aparıcı xüsusi hərbi məktəblərdə həm xüsusi əməliyyatların aparılması, həm də bütün qoşun növlərinin səylərinin əlaqələndirilməsi öyrənilir. Yəni bu əməliyyat barəsində hər şey məlum olanda o, ən uğurlu əməliyyat kimi tarixə düşəcək”.

Həqiqətən də bu əməliyyatlar tarixə düşdü. Əməliyyatlarda iştirak edən xüsusi təyinatlılarımız, sərhəd xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan əlahiddə ümumqoşun ordusunun xüsusi qüvvələri bir daha Azərbaycan Ordusunun nəyə qadir olduğunu dünyaya nümayiş etdirdilər. Onların həyata keçirdikləri bütün kombinasiya uğurla nəticələndi.

Komandanlığın düzgün kombinasiyası ilə kəşfiyyat, artilleriya, zərbə pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpuslarının döyüş hazırlığı birlikdə qələbəyə gətirib çıxardı.

### Yeni döyüş taktikası

İşğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan, 44 gün davam edən və Azərbaycanın tam Qələbəsi ilə nəticələnən Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti, nəticələri uzun illər təhlil ediləcək, bu qələbənin şəninə dastanlar, romanlar, elmi əsərlər yazılacaq.

İkinci Qarabağ müharibəsində Azərbaycan həm də yeni təcrübə topladı. Çünki ordumuz bunadək demək olar ki, müharibələrdə iştirak etməmişdi. Sadəcə olaraq bu sahəyə nəzəri baxımdan yanaşırdı. Vətən müharibəsində zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də əsgər və zabitlərimizin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, qələbəyə inamı, şəxsi rəşadətləri, döyüş əhvali-ruhiyyələri idi.

Döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik, qanı və canı bahasına qələbəni təmin etmələri hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəhlə doldurdu.

Ukraynalı hərbi ekspert Aleksey Arestoviç hesab edir ki, Azərbaycanın hərbi taktikası, döyüş manevrləri ağıllı və məntiqli idi: “Bir neçə günlük döyüşlər nəticəsində Ermənistanın canlı qüvvəsi və texnikası ciddi itkilər verdi. Ermənistan ordusunda döyüş effektivliyi minimuma endi. Azərbaycan budəfəki əməliyyatlarda çox ağıllı hesablama və konkret şərait üçün unikal strategiya tətbiq etdi”.

Güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, ordu ilə xalqın vəhdətinin təmin edilməsi möhtəşəm qələbənin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbə ilə dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları arasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi.

İnanırıq ki, Ordumuzun döyüş əməliyyatlarını xüsusi peşəkarlıqla planlaşdıraraq həyata keçirmək strategiyası və taktikası digər ölkələrin hərbi strukturları tərəfindən öyrəniləcək və yeri gələndə tətbiq ediləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# Qarabağ həqiqətlərini boğmaq mümkün deyil

*Xüsusən də onun İlham Əliyev kimi carçısı varsa*

Əvvəli 1-ci səh.



Faktiki olaraq hər müsahibənin sonunda biz Azərbaycan Prezidentinin necə qələbə çalmasının şahidi olurduq. Dünyanın ən məşhur qələm və söz sahibləri ingilis dilində kəkələməyə cəhd edən Paşinyanı bircə sualla diz çökdürüb nüfuzdan salırdılar. Amma Prezident İlham Əliyevlə görüşlərdə anlayırdılar ki, onların qaşısında böyük dövlətçilik təcrübəsinə, diplomat qətiyyətinə, sərkərdə cəsurluğuna və yenilməz Ali Baş Komandan keyfiyyətlərinə malik olan lider dayanır.

44 günlük savaş zamanı erməni təbliğat maşını Qarabağ münaqişəsini regional müharibəyə çevirmək, Rusiya ilə Türkiyəni qarşı-qarşıya qoymaq üçün dəridən-qabıqdan çıxırdı. Erməni siyasətçiləri indinin özündə belə bunun üçün bütün güc və bacarıqlarını səfərbərliyə alıblar. Məqsədləri Qafqazı həmişəki kimi qan çanağına çevirməkdir.

Azərbaycanın möhtəşəm qələbəsindən sonra Ermənistanda siyasi partiyaların dərinləşən mübarizəsi bu gün Yerevanda xalqın məğlubiyyətlə barışmaması kimi təqdim edilir. Reallıqda isə xalq özgə torpağında döyüşmək istəmir, sülhün marağındadır. Baxmayaraq ki, siyasi partiyalar erməni xalqının maraqları çərçivəsində yox, qulluq etdikləri erməni diaspor təşkilatlarının tələblərinə uyğun hərəkət edir, yenidən müharibəni alovlandırmağa çalışırlar. Bu baxımdan Azərbaycan Prezidentinin ən böyük xidmətlərindən biri də odur ki, o, nadir keyfiyyətlərə malik diplomat kimi Rusiya-Türkiyə münasibətlərinin qarşıdurmaya çevrilməməsi üçün vacib olan səylər göstərərək erməni diasporunun fəal şəkildə Rusiyanı müharibəyə cəlb etmək cəhdlərini alt-üst edir.

İlham Əliyev xarici və yerli KİV nümayəndələri üçün keçirdiyi mətbuat konfransında da erməni faşizmini bütün çılpaqlığı ilə ifşa etdi, bizim öz torpaqlarımızı işğaldan azad etmək uğrunda kimsədən kömək istəmədən təkbaşına döyüşdüyümüzü bir daha başa saldı. Dövlət başçısı növbəti dəfə dünyaya bəyan etdi ki, Türkiyə və Rusiya kimi iki nəhəng dövlət Qarabağ müharibəsində qarşı-qarşıya dayanmamışdır, əksinə, sülhməramlılar qismində əməkdaşlıq etməyə başlamışlar. Məhz bunun sayəsində erməni nasistlərinin bütün səyləri boşa çıxmış, Qafqaz regionunda qlobal müharibə alışmamışdır.

Həmin mətbuat konfransında yaddaqalan başqa məqamlar da olmuşdur. Məsələn, İspaniyanın “La Vanguardia” qəzetinin əməkdaşı Azərbaycan Prezidentinin bir neçə dildə sərbəst danışmasına heyran qaldığını bildirmişdir: “Bizdə, İspaniyada siyasətçilər bunu edə bilmir”. Böyük Britaniyadan müstəqil jurnalist isə mətbuat konfransının keçirilmə vaxtına görə Azərbaycan Prezidentinin artıq yeni dünya rekorduna imza atdığını, 25 illik jurnalistika fəaliyyətində hər hansı bir dövlət və hökumət başçısının bu cür mətbuat konfransı aparmasının şahidi olmadığını etiraf edərək soruşmuşdur: “Siz dünya mediasının Azərbaycana olan münasibətini necə qiymətləndirirsiniz? Burada bir çox jurnalistlər var, Sizin onlara mesajınız nədən ibarət olacaq və Siz gələcəyi necə görürsünüz? Azərbaycanın mövqeyinin dünyaya çatdırılması baxımından hansı planlarınız var?” Prezident İlham Əliyev bu suala cavabında müharibənin getdiyi 44 gün ərzində 30-dan artıq müsahibə verdiyini qeyd etmişdir: “Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur. Bu gün sizinlə razılaşıram ki, bu da xüsusi bir gündür”.

Dünya mətbuatının Azərbaycana münasibətinə gəldikdə Prezident onu vurğulamışdır ki, yanaşmalar və mövqelər dəyişir və reallıqlar artıq daha yaxşı dərk edilir: “Ancaq bu gün siz buradasınız, siz hamınız peşəkarsınız, ağıllı insanlarsınız və bilirsiniz ki, doğru və yanlış nə deməkdir. Siz həmin dağıdılmış ərazilərə səfər edirsiniz və bu, hər bir sözdən artıqdır, bunu öz gözünüzlə görmək imkanınız olur. Ona görə hesab edirəm ki, müharibə vaxtı mən, səmimi desəm, bir balaca fərqli yanaşma gözləyirdim, çünki uzun illərdir ki, Azərbaycana qarşı ədalətsizlik hökm sürürdü, bizə qarşı müxtəlif media qrupları tərəfindən hücumlar var idi. Bəzən bu, məlumat qıtlığından qaynaqlanırdı, ancaq bir çox hallarda erməni lobbi təşkilatlarının sayəsində baş verirdi”.

Dövlət başçısı həmçinin dünya mediasında Azərbaycana ədalətli mövqelərin sərgilənməyə başlanıldığını qeyd etmişdir: “Mənim beynəlxalq mediaya mesajım ondan ibarətdir ki, hər zaman həqiqətləri söyləyin, siyasi sifarişlərdən uzaq olun. Nəyə görə mən bunu deyirəm? Mən bilirəm ki, biz əlaqələndirilmiş, təşkilatlanmış informasiya hücumuna məruz qalırdıq. Bu əməllər bizim etdiyimizi gözdən salmaq, bizə ləkə yaxmaq və Azərbaycan haqqında, onun hökuməti haqqında yanlış təsəvvürlər yaratmaq məqsədi daşıyıb. Ona görə də sizə səslənirəm ki, həqiqəti söyləyin, mövqeyinizi açıq ifadə edin. Ola bilər ki, bu, jurnalistlərə verə biləcəyim o qədər də yaxşı tövsiyə olmaz. Amma rəhbərlərinizin dediklərinə hər zaman əməl etməsəniz, bəlkə daha yaxşı olardı”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# İlham Əliyevin sosial siyasəti əməli addımlar və konkret qərarlarla davam edir

Dövlətin həyata keçirdiyi sosial siyasət sayəsində ölkə vətəndaşlarının həyat səviyyəsi ildən-ilə yüksəlir. Mütəmadi olaraq pensiyalar və digər sosial ödənişlərin məbləği artırılmaqla yanaşı, onların əhatə dairəsi də genişlənir. Bununla Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi “Dövlətin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır” bəyanatı əməli addımlarla sübut olunur.



Pandemiya dövründə biz bir daha bunun şahidi olduq. COVID-19-la əlaqədar bir çox iş yerləri bağlansa da, dövlət maddi yardım etməklə vətəndaşları taleyin ümidinə buraxmadı. Bununla yanaşı, sahibkarlara maliyyə dəstəyi göstərildi ki, həm özləri ayaqda qalsın, həm də iş yerlərini ixtisar etməsinlər. Bu dövrdə əhalinin sağlamlığının qorunması və sosial müdafiəsi sahəsində görülən tədbirlər isə bir sıra beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildi.

Ölkəmizdə 30 ilə yaxın bir müddətdə sosial müdafiəyə daha həssas olan qaçqın və məcburi köçkünlərin problemlərinin həlli üçün də tədbirlər görülmüşdür. Bu kateqoriyadan olan insanların başlıca problemini həll etmək üçün hər şəraiti olan və infrastrukturla təmin edilən 100-dək qəsəbə salınmışdır. Üstəlik, onlara işıq, qaz, su və digər kommunal xərclərin ödənilməsində güzəştlər edilmiş, adambaşına sosial müavinət ödənilmişdir.

Vətənin müdafiəsində fədakarlıq göstərən əsgər və zabitlərin sosial ehtiyacları da unudulmur. Onlar ev və mənzillərlə təmin edilir, müalicələri dövlət hesabına aparılır, bir sıra güzəştlərdən istifadə etmələrinə imkan yaradılır, qazilər isə avtomobillə təmin edilirlər.

Fevralın 25-də şəhid ailələri və müharibə əlilləri dövlətin növbəti qayğısının şahidi oldular. Həmin gün Prezident İlham Əliyevin iştirakı ilə Ramana qəsəbəsində 1512 mənzildən ibarət yaşayış kompleksindəki mənzillər şəhid ailələrinə və müharibə əlillərinə təqdim olundu. Kompleksdə mənzillər təmirlidir, yeni sakinlərin yüksək səviyyədə yaşaması üçün məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Ümumilikdə dövlət başçısının imzaladığı sərəncamla 2021-2025-ci illər ərzində bu kateqoriyadan olan 11 mindən çox insan mənzillə təmin ediləcək. Onu da qeyd edək ki, indiyədək müharibə əlillərinə 7200-ə yaxın minik avtomobili verilib.

Prezident şəhid ailələri və müharibə əlilləri ilə görüş zamanı dövlətin bu sahədəki siyasətinin dəyişməz olduğunu bildirərək demişdir: “Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bugünə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsidə şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır”.

Şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası Fatma Qocayeva ölkəmizdə şəhid və qazi ailələrinə göstərilən diqqətə görə minnətdarlıq edərək deyir ki, indi şəhidlərimizin ruhu şaddır: “Torpaqlarımız düşmən işğalından azad edilib, ailələri isə dövlət tərəfindən qayğıkeşliklə əhatə olunub. Dövlət başçısı bizim hər qayğımızla maraqlanır, zamanında lazım olan köməyi göstərir. Şəhid ailələrinin və müharibə əlillərinin yeni mənzillərlə təmin edilməsi isə dövlətin bizim üçün növbəti hədiyyəsidir”.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# QMİ sədri Rus Pravoslav kilsəsinin mitropoliti ilə görüşüb



Martın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav kilsəsinin mitropoliti İoan (Georgi Roşşin) ilə görüşüb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaq Şeyxülislam həzrətlərinə Moskva və bütün Rusiya patriarxı Kirilin salam-dualarını çatdırıb.

Qonağı səmimi salamlayan QMİ sədri, Qafqaz Müsəlmanları İdarəsi üçün Rus Pravoslav kilsəsi ilə əlaqələrin xüsusi önəm kəsb etdiyini vurğulayıb, iki dini mərkəz arasında ənənəvi dostluq, qarşılıqlı ehtiram və sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edib. Şeyxülislam həzrətləri pandemiya dövrünün bu əməkdaşlığa böyük ölçüdə təsir göstərdiyinə baxmayaraq, RPK və QMİ nümayəndələri arasında mütəmadi fikir mübadiləsinin aparılmasında və istər onlayn, istərsə də əyani görüşlərin davam etdirilməsindən məmnunluğunu dilə gətirib, bu əlaqələrin qlobal dinlərarası dialoqa böyük töhfə verdiyini bildirib.

Daha sonra Şeyxülislam həzrətləri Azərbaycanın əzəli Qarabağ torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsində Azərbaycanda yaşayan bütün dini konfessiyadan olan bütün vətəndaşlarımızın, o cümlədən rus pravoslav qardaşlarımızın dövlət ətrafında sıx birləşməsindən, onların da arasında şəhid qəhrəmanlarımızın olduğunu fəxarətlə vurğulayıb. Şeyxülislam həzrətləri erməni təcavüzkarlarının 30 il istila altında qalan əzəli torpaqlarımızda həyata keçirdikləri zorakılıq və etnik təmizləmə cinayətlərindən, tarixi-dini abidələrimizə qarşı törətdikləri vandalizm aktlarından bəhs edib, hazırda ölkəmiz qarşısında azad olunmuş torpaqlarda bərpa və dinc həyatın yenidən qurulması, dini məbədlərin, o cümlədən məkrli qriqorianlaşdırma əməllərinə məruz qalmış tarixi xristian məbədlərinin gələcəyinin müəyyən edilməsi, eləcə də Ermənistan dövlətinin və erməni kilsəsinin Azərbaycana qarşı apardığı dünya miqyaslı iftira və ləkələmə kampaniyasına, Ermənistanla Azərbaycan arasında qarşıdurmanı dini müstəviyə keçirmək cəhdlərinə qarşı fəaliyyət kimi vəzifələrin durduğunu qeyd edib.

Öz növbəsində, Moskva və bütün Rusiya patriarxı Kiril həzrətlərinə öz səmimi salam-dualarını yetirən Şeyxülislam, Ermənistanla Azərbaycan arasındakı münaqişənin guya dini müstəvidə olduğunu göstərməyə imkan verməmək üçün indiyədək böyük işlər görən Rus Pravoslav kilsəsi bundan sonra da regionda dinc həyatın bərpa olunması yolunda öz səylərini əsirgəməyəcək.

Qəbula görə Şeyxülislam həzrətlərinə öz təşəkkürünü bildirən mitropolit İoan yenidən Azərbaycanı ziyarət etməkdən xoşbəxt olduğunu bildirib. O, QMİ sədrinin fikrinə şərik çıxaraq 21-ci əsrdə dinlərin və dinlərarası əməkdaşlığın əhəmiyyətinin daha da artdığını, müasir dünyanın problemlərinə qarşı ən təsirli vasitələrdən biri olduğunu qeyd edib.

Görüş səmimi dostluq şəraitində keçib.

# Şəhid ailələri və müharibə əlillərinə daha 30 mənzil təqdim edildi

## Tədbirdə şəhid Polad Həşimovun anası Səmayə Həşimova da iştirak edib









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bu il 3 min, yaxın 5 ildə 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin ediləcək. Bakının Ramana qəsəbəsindəki yeni yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə daha 30 mənzilin təqdim olunmasına həsr olunmuş tədbir keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə nazirliyin rəsmiləri ilə yanaşı, şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova, "Qarabağ Qaziləri" İctimai Birliyinin üzvü Rey Kərimoğlu və başqaları iştirak ediblər.

Qeyd olunub ki, Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinə qayğısı olaraq şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlərlə təminatı proqramı ildən-ilə genişlənir. Nazirlik tərəfindən həmin vətəndaşlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilib. 2021-ci ildə isə 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulur ki, bu da mənzil və fərdi evlə təminat proqramının 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişləndiyini göstərir.

Tədbirdə S.Həşimova deyib ki, tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində düşmənə sarsıdıcı zərbələr vurulub, şəhidlərimizin qisası alınıb, qanları yerdə qalmayıb. Onların yazdığı böyük tarix heç vaxt unudulmayacaq. Şəhid anası şəhidlərimizin ailələrinin və müharibə əlillərinin hərtərəfli qayğı ilə əhatə olunması üçün dövlətimizin davamlı işlər apardığını bildirib, yeni mənzillə təmin olunanlara bu mənzillərdə firavan həyat arzulayıb.

R.Kərimoğlu qazilərimizə, şəhid ailələrinə hər zaman dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunduqlarını vurğulayıb. Onlara göstərilən genişmiqyaslı dəstək tədbirlərindən bəhs edib. Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinin və müharibə iştirakçılarının sosial təminatı, onların rifahının yaxşılaşdırılması sahəsində aparılan işləri qeyd edib.

Şəhid ailələri və müharibə əlilləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər yürüşündən qürur hissi keçirdiklərini vurğulayıblar. Onların sosial təminatlarının gücləndirilməsi üçün aparılan işlərdən razılıqlarını bildiriblər. Göstərilən diqqət və qayğıya, bu gün yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər.

Mənzillərdən 18-i Qarabağ müharibəsi əlillərinə, 12-si şəhid ailələrinə təqdim edilib.

*Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimiz:*

# Qiyaslı məscidi









Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı xalqımıza məxsus yüzlərlə daşınmaz tarix, mədəniyyət və dini abidələr dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edilərək vandalizmə məruz qalıb.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam rayonunun Qiyaslı kəndindəki XVIII əsrə aid məsciddir. Kənd məscidindən mal-qara tövləsi kimi istifadə edən işğalçılar rayonu tərk etməmişdən əvvəl onu yandırıblar.

Qeyd edək ki, Qiyaslı məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülüb.

# *Gürcü telejurnalist:* "Ağdamda dini və mədəniyyət ocaqları məhv edilib"

"Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində gördüklərim məni dəhşətə gətirdi. Burada müharibənin izlərindən başqa heç nə yoxdur".




AZƏRTAC xəbər verir ki, bu barədə gürcü telejurnalist, "Tv Pirveli" telekanalının müxbiri Miranda Baqaturiyanın Ağdamdan hazırladığı reportajda məlumat verilib.

Telejurnalist bildirib ki, 1990-cı illərə qədər Ağdamda əsasən azərbaycanlılar yaşayıb. Lakin elə həmin illərdə Azərbaycanın Qarabağ bölgəsi işğal olunduqdan sonra Ağdam rayonunda da heç kim qalmayıb. Yurd-yuvalarından didərgin düşmüş insanlar Azərbaycanın müxtəlif bölgələrində məskunlaşıblar. İndi onlar bu torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

Ağdama hərbçilərin və yerli polis əməkdaşlarının nəzarəti altında getdiklərini söyləyən telejurnalist deyib ki, erməni işğalından azad olunmuş ərazilərdə işğalçılar minlərlə mina basdırıblar. Ona görə də həmin ərazilərdə sərbəst gəzmək və istədiyin yerə getmək çox təhlükəlidir. Burada, ümumiyyətlə, dağıdılmış evlərdən başqa heç nə yoxdur. Yalnız ermənilərin hərbi məqsədlər üçün istifadə etdikləri yeraltı sığınacaq və istehkamlar var. İşğalçılar dini, tarixi, mədəni abidələri də dağıdıblar. Ermənilər Ağdamdakı Ağdaban məscidini silah-sursat anbarına çeviriblər. Məscidin yaxınlığındakı mədəniyyət mərkəzindən isə tövlə kimi istifadə olunub.

M.Baqaturiya bütün əzab-əziyyətlərə sinə gərərək evini tərk etməyən, cəbhənin lap yaxınlığında yaşayan, hər gün atəş və bomba səsləri altında ölümlə üz-üzə gələn yerli sakindən - 75 yaşlı Nuri nənədən müsahibə də alıb. Nuri nənənin müharibənin ağrı-acısı, erməni vəhşilikləri barədə söylədikləri də gürcü ictimaiyyətinin diqqətinə çatdırılıb.

Reportajda işğaldan azad edilmiş Azərbaycan ərazilərinə səfər edən gürcü politoloq, tarixçi alim Guram Marxuliyanın müsahibəsi də yer alıb.

G.Marxuliya erməni vəhşiliyindən söz açıb, işğalçıların törətdikləri insanlığa sığmayan cinayətlərin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb.

Gürcü jurnalist Qubadlı rayonunda gördüklərini də tamaşaçılara təqdim edərək deyib: "Sonra biz Qubadlıya getdik. Orada 2010-cu illərdə Suriyadan gəlmiş erməni qaçqınlar üçün tikilmiş kənddən keçdim. İkinci Qarabağ müharibəsindən sonra - 2020-ci ilin noyabrında erməni əhali bu kəndi və ümumilikdə Qubadlını tərk edib. Buradakı evlərin çoxu yandırılıb, yararsız hala salınıb. Təbiət məhv edilib. Gördüklərim məni dəhşətə gətirdi".

# Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin problemlərinin həlli Qaradağ rayonunda da diqqət mərkəzində saxlanılır

Azərbaycan Respublikası Prezidentinin cari il yanvarın 7-də "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərmanına uyğun olaraq Qaradağ Rayon İcra Hakimiyyətinin Aparatında da Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi yaradılıb.

Rayon icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Həsrət Almasov AZƏRTAC-a açıqlamasında ötən müddət ərzində rayonda bu istiqamətdə görülən işlər barədə məlumat verib.

Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin dövlət qayğısı ilə əhatə olunduğunu söyləyən Həsrət Almasov bildirib ki, Qaradağ rayonundan 914 nəfər Vətən müharibəsi zamanı döyüş əməliyyatlarında iştirak edib, onlardan 28-i döyüşlərdə qəhrəmanlıq nümayiş etdirərək şəhidlik zirvəsinə yüksəlib. Qeyd olunub ki, şəhidlərin hər birinin dəfn və yas mərasimləri təşkil olunub, bütün lazımi addımlar atılıb.

Qeyd olunub ki, mütəmadi olaraq şəhid ailələrinə baş çəkilir, müxtəlif görüşlər təşkil olunur, onların problemlərinin həlli nəzarətdə saxlanılır. "Ötən ay 28 şəhid ailəsi ilə görüş təşkil olunub. Görüşdə qaldırılan məsələlərin hər biri dərhal həll edilib. Bu cür görüşlər mütəmadi olaraq təşkil olunacaq və şəhid ailələrinin sosial vəziyyətləri, onları narahat edən məsələlər mütəmadi olaraq nəzarətdə saxlanılacaq", - deyə şöbə müdiri vurğulayıb.

O qeyd edib ki, ötən müddət ərzində görülən işlər sırasına şəhid ailələrinə maddi yardımların edilməsi, onların evlərinin təmiri, ailə üzvlərinin işlə təmin olunması kimi məsələlər daxildir.

Hərbi əməliyyatlar zamanı Qaradağ rayonundan 154 yaralının olduğunu vurğulayan şöbə müdiri deyib: "Yaralanmış bütün şəxslərin məlumatları ümumiləşdirilib, onlarla davamlı əlaqə yaradılıb və mövcud problemləri aradan qaldırılıb. Bəzilərinin məşğulluq problemləri, işlə təmin olunmaları qısa müddət ərzində həllini tapıb. Bununla yanaşı, hərbi əməliyyatlarda yaralanmış şəxslərlə mütəmadi görüşlər təşkil edilir, onlara maddi və ərzaq yardımları edilir".

# Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun büro iclası keçirilib

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun büro iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın UNESCO-dakı daimi nümayəndəliyinin rəhbəri, səfir Elman Abdullayevin sədrliyi ilə keçirilən büro iclasında Venesuelanın daimi nümayəndəsi Jorge Valero Briceno, Uqandanın daimi nümayəndəsi Riçard Nduhuura, Qətərin daimi nümayəndəliyinin müşaviri Şayxa Al Sulaiti və Azərbaycanın daimi nümayəndəliyinin müşaviri Ayaz Qocayev iştirak ediblər.

Tədbir Qoşulmama Hərəkatının növbəti plenar iclasına hazırlıq məqsədilə təşkil olunub. İclasda plenar iclasın gündəliyi müzakirə olunub.

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanında qrupunun növbəti plenar iclası martın 30-na planlaşdırılıb.

Xatırladaq ki, Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olub. Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində bu təşkilatın məqsəd və məramlarının təşviqinə, beynəlxalq sülhə, təhlükəsizliyə və əməkdaşlığın gücləndirilməsinə töhfə verir.

# Paşinyan müxalif liderləri həbs etdirir

*Əvvəli 1-ci səh.*

N.Paşinyan isə xalqın dəstəyinə malik olduğunu göstərmək və müxalifətin ona qarşı çıxmasına son qoymaq üçün növbədənkənar parlament seçkilərinə gedilməsində israrlıdır. O, hökumət əleyhdarları razı olarsa, bu il növbədənkənar parlament seçkiləri keçirməyə hazır olduğunu təsdiqləyib və bu məsələnin müzakirəsi üçün müxalifət nümayəndələri ilə görüşməyə hazır olduğunu bildirib.

Onu da qeyd edək ki, N.Paşinyan ölkəni prezident idarə üsuluna qaytarmaq istəyir. Martın 1-də Yerevanda keçirilən mitinqdə çıxış edən N.Paşinyan yarı prezident üsul idarəsinə qayıtmağa tərəfdar olduğunu vurğulamış, bunun üçün 2021-ci ilin oktyabr ayında konstitusiya referendumu təyin ediləcəyini demişdi. Paşinyanın məqsədi prezident üsul idarəsinə qayıtmaqla öz hakimiyyətini daha da möhkəmləndirməkdir.

Bu arada erməni mediası yazır ki, hakimiyyət baş qərargah rəisi Onik Qasparyanın vəzifəsindən azad olunmasına nail olduqdan sonra onu əvəz edəcək bir neçə hərbçinin namizədliyini nəzərdən keçirir. "4rd.am" saytı yazır ki, namizədlərdən biri general-mayor və baş qərargah rəisinin müavini Andranik Makaryandır. O, baş nazirin istefasını tələb edən bəyanata qoşulmayıb. Məlumata görə, Makaryan Qasparyanın yerinə gəlməyi doğru saymadığı üçün razılıq verməyib, üstəlik vəziyyət həll edildikdən sonra xidmətdən ayrılacağını bildirib.

Hakimiyyətin başqa namizədləri də var. Amma indiki qarşıdurma şəraitində yüksəkrütbəli zabitlərin əksəriyyəti mövqe ortaya qoymaqdan çəkinirlər. Ona görə Paşinyan hələlik seçim qarşısındadır və baş qərargah rəisi vəzifəsinə konkret namizədin adını açıqlaya bilmir.

Bütövlükdə Ermənistanda siyasi böhran hər gün daha da güclənir, ziddiyyətlər dərinləşir. Vəziyyətdən çıxış yolu isə görünmür. İllər boyu işğal siyasəti yürütməsi səbəbindən indi bu ölkə tarixinin ən utanc səhifəsini yazır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Biz birlikdə güclüyük!

# Koronavirusun həyatımızda olduğunu unutmamalıyıq

Təhlükəli koronavirus infeksiyasının başa çatması barədə dünyada ümidlə gözlənilən məlumat hələ də verilmir. Əvəzində hər gün əksər ölkələrdə qlobal pandemiyaya yoluxma və ölüm sayının artması haqqında yenilənmiş statistika açıqlanır. Artıq dünyada koronavirusdan həyatını itirənlərin sayı iki milyon yarımı ötüb.

Təəssüf ki, son günlər ölkəmizdə də COVID-19-a yoluxma sayında artım müşahidə edilməyə başlayıb. Bu səbəbdən Bakıda daha bir məktəb bağlanıb. Belə ki, 106 saylı tam orta məktəbdə 2 nəfər laborant, 1 nəfər uşaq birliyi təşkilatı rəhbəri və 1 nəfər direktor müavininin COVID-19 testi pozitiv çıxıb. Məlumata görə, Bakı şəhəri Qaradağ rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında məktəbdə əyani tədris prosesi müvəqqəti olaraq dayandırılıb. Bakı Şəhər Təhsil İdarəsindən verilən açıqlamada bildirilib ki, yaranmış vəziyyətlə əlaqədar olaraq məktəbin fəaliyyəti 7 günlük müddətinə təxirə salınıb və dərslərin distant formada tədris olunması qərara alınıb.

Bakı Şəhər Təhsil İdarəsindən verilən məlumatda qeyd olunub ki, hazırda təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun olaraq təşkil edilir. Təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və




məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur və müvafiq qaydaların icrası ilə bağlı mütəmadi monitorinqlər aparılır. BŞTİ rəhbərliyi və idarənin əməkdaşları da gündəlik məktəblərə gedir, tədrisin təşkili vəziyyəti ilə yerində tanış olurlar.

Ölkəmizdə koronavirusa yoluxma sayının daha da yüksələ biləcəyi, hətta karantin rejiminin yenidən sərtləşdiriləcəyi, qapanmaların olacağı ilə əlaqədar son günlər rəsmi olmasa da, müxtəlif məlumatlar yayılır. Qeyd edək ki, bu barədə qərarı Nazirlər Kabineti yanında Operativ Qərargah verir. Qərargahın isə hələ ki, belə bir açıqlaması yoxdur.

Məlumdur ki, karantin rejiminin sərtləşdirilməsinin müsbət tərəfləri ilə yanaşı, problemləri də var. İnsanlar həm psixoloji gərginlik keçirir, həm də bu, iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. İnsanlarda narahatlıq doğuran səbəblərdən biri də qarşıdan Novruz bayramının gəlməsidir. Məlumdur ki, Novruz Azərbaycan xalqının ən qədim, ən gözəl bayramlarındandır. Bayram günlərində bir-birinin evinə qonaq getmək, birlikdə mərasimlər keçirmək xalqımızın qədim adət-ənənələrindəndir. Ancaq COVID-19 bəlasının meydanı genişləndirə bilməməsi üçün bu ilin Novruz bayramı tədbirlərində əhalinin ehtiyatlı davranması, ayıq-sayıqlığı vacibdir. Unutmamalıyıq ki, koronavirus bizim yaşadığımız dünyanı və ölkəni tərk etməyib, hələ ki, həyatımızı təhdid etməkdə davam edir.

Azərbaycan dövləti öz vətəndaşlarının sağlamlığının qorunması üçün lazımi tədbirləri həyata keçirir. Karantin rejimində bəzi yumşaldılmalar olsa da, tamamilə aradan qaldırılmayıb. Digər tərəfdən vaksinasiya tədbirləri davam edir. Səhiyyə işçiləri bu bəladan qurtulmaq üçün yeganə çıxış yolunun vaksinasiya olduğunu bildirirlər. Azərbaycanda koronavirus infeksiyasına qarşı vaksin vurduran şəxslərin sayı 300 mini keçib. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Vaksinasiya respublikamızın bütün rayonlarında uğurla davam etdirilir.

Martın 3-dən "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ümumi təhsil müəssisələrinin pedaqoji və texniki heyətinin vaksinasiya prosesinə də başlanılıb. Bu barədə Təhsil Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaydığı birgə məlumatda qeyd edilib. İlkin olaraq yaşı 50 və daha yuxarı olan pedaqoji və texniki heyətin vaksinasiyasına start verilib. Bu məqsədlə Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərində 10 peyvənd məntəqəsi yaradılıb.

Koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Goranboyda vaksinasiya prosesi davam edir







Ölkənin hər yerində olduğu kimi, Goranboyda da vaksinasiya prosesi davam edir. Artıq 2342, o cümlədən yaşı 65-dən yuxarı 681, 50-65 yaşarası 1340 və 50 yaşadək 321 nəfər şəxs peyvənd olunmuş, 3010 nəfər elektron qaydada qeydiyyata alınmışdır.

Qeyd edək ki, rayonda əhalinin COVID-19 pandemiyasına qarşı vaksinasiya edilməsi prosesinin yüksək mütəşəkkilliklə aparılması üçün bütün zəruri hazırlıqlar görülmüşdür. Belə ki, vaksinasiya prosesinin həyata keçirilməsi məqsədilə rayon mərkəzi xəstəxanasında həkim, qeydiyyat, gözləmə, müayinə, operator, vaksinasiya, nəzarət və təcili tibbi yardım otaqları ayrılmış, peyvəndlərin daşınması üçün TƏBİB-in təlimatlarına uyğun zəruri şərait yaradılmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Koronavirusa qarşı qorunma tədbirləri davamlı şəkildə həyata keçirilməlidir

*Əvvəli 1-ci səh.*

### Vaksinasiya əyani tədrisə keçidi sürətləndirəcək

Martın 3-dən "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, ümumi təhsil müəssisələrinin pedaqoji və texniki heyəti üçün vaksinasiya prosesinə start verilib. İlkin olaraq paytaxtda yaşı 50 və daha yuxarı olan pedaqoji və texniki heyətin vaksinasiyası həyata keçirilir. Bu məqsədlə Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərində 10 peyvənd məntəqəsi yaradılıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən peyvənd məntəqələri kompüter avadanlıqları ilə təchiz olunub və data kart vasitəsilə internetə çıxış təmin olunub.

Bakı Şəhər Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva bildirib ki, vaksinasiya prosesinə ilkin olaraq paytaxt üzrə 20 000 nəfərə yaxın pedaqoji və texniki heyət üzvünün cəlb olunması nəzərdə tutulur. Burada əsas məqsəd müəllimlərin işdən ayrılmadan vaksinasiyadan keçməsini təmin etməkdir. Onun fikrincə, kütləvi vaksinasiya əyani tədrisə keçidi sürətləndirəcək: "Koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir. Bunu nəzərə alan və sağlamlıqlarına həssas yanaşan təhsil işçiləri martın 3-dən başlayan vaksinasiya prosesində fəal iştirak edirlər".

Mehriban Vəliyevanın sözlərinə görə, vaksin olunan şəxslər mütləq həkim müayinəsindən keçirilir. Kimdəsə yanaşı xəstəliklər varsa, onlar peyvənd olunmur: "Vaksinasiyadan yalnız göstəriciləri meyarlara cavab verənlər keçirilir. Peyvəndlənmə könüllüdür. Vaksinasiyadan keçmək vətəndaş məsuliyyəti məsələsidir. Ancaq keçmək istəməyən müəllimlərin tənbeh olunması və ya cəzalandırılması barədə heç bir qərar yoxdur".

### Peyvəndlər səhiyyənin də yükünü azaltmış olacaq

Səhiyyə Nazirliyinin COVID-19-la mübarizə üçün yaratdığı işçi qrupunun üzvü Səbinə Babazadə vaksinasiya prosesinin təşkili və onun vacibliyi ilə bağlı danışarkən qeyd edib ki, peyvənd olunmaq istəyənlər randevu.its.gov.az saytından qeydiyyatdan keçdikdən sonra poliklinikaya müraciət edə bilərlər. Qeydiyyat prosesində çətinlik yaşayan vətəndaşlara bu mövzuda yardım göstərilir. Vətəndaş poliklinikaya zəng edərək şəxsi məlumatlarını qeydiyyat şöbəsindəki tibb işçisinə verməklə qeydiyyat sistemine daxil ola bilər. İlk doza üçün qeydiyyatdan keçdikdən sonra mesaj şəklində hər 2 dozanın tarix və saatı vətəndaşa göndərilir.

Qurum rəsmisinin sözlərinə görə, bəzən vətəndaşların narazılıqları vaksin olunmağa gəldikləri zaman növbə gözləmələri ilə bağlı olur. Vaksindən öncə bir neçə yoxlanış, məlumatların alınması prosesi vətəndaşların müəyyən müddət gözləməsinə səbəb ola bilir. Digər səbəblərdən biri isə qeydiyyatdan keçməmiş vətəndaşların müraciəti ilə bağlıdır. Onların bir-bir qeydiyyata alınması prosesi növbə gözləməyə gətirib çıxarır: "Biz işə yardım məqsədilə vətəndaşlardan qeydiyyatdan keçmələrini və ya yaxınlarından bu prosesdə onlara yardımçı olmalarını xahiş edirik. Təkcə COVID-19 vaksini yox, bütün vaksinlər vurulduqdan sonra müəyyən yan təsirlər özünü göstərə bilər. Halsızlıq, qısamüddətli baş ağrıları, yüngül hərarət və ya inyeksiya yerində az miqdarda ağrı baş verə biləcək normal hallardır. Bəzən vaksinin həyəcanından təzyiqin qalxması da mümkündür. Bu hallar bütün vaksinlər üçün keçərlidir. Hər hansı ciddi bir vəziyyətlə və yaxud şikayətlə qarşılaşmamışıq".

S.Babazadə vurğulayıb ki, peyvənd infeksion xəstəliklərə qarşı ən effektiv müdafiə üsuludur. Hazırda vaksinasiya prosesi strategiyaya uyğun olaraq uğurlu şəkildə davam edir. Sağlamlıq şərtləri uyğun olan, strategiyada yer almış hər bir vətəndaş vaksinasiya prosesində iştirak etməlidir: "Vaksinasiya, ilk növbədə, həmin şəxsin özünü və yaxınlarını yoluxmadan qoruyur. Kütləvi yoluxma hallarını və ölüm saylarını unutmamalıyıq. Vaksinlər bizi ağırlaşma hallarından və ölüm hadisələrindən qoruyaraq səhiyyənin də yükünü azaltmış olacaq. Yalnız qısa zamanda edilən peyvəndlərlə kütləvi immun sistemi qazanaraq COVID-19-a qalib gəlmək mümkündür".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Rusiya Federasiyasındakı nümayəndəsi Melita Vuinoviç deyib ki, mutasiyaların gözlənilməz olması səbəbindən koronavirusa qarşı qorunma tədbirlərinin davamlı şəkildə həyata keçirilməsi vacibdir.

ÜST rəsmisi bildirib ki, hansı şəkildə mutasiyalar olacaq və bunlar nələrə səbəb ola bilər, heç kim bilmir. Buna görə də qoruyucu tədbirlərin davam etdirilməsi çox vacibdir: "Pandemiyaya qarşı mübarizədə maska taxmaq, şəxsi gigiyenaya riayət etmək, sosial məsafəni qorumaq lazımdır. Mümkün olan hər şeyi etmək çox vacibdir, çünki virusun yayılmasını dayandırmalıyıq".

Bütün mütəxəssislərin yekdil fikrinə görə, təhlükəli infeksiyaya qarşı ən təsirli qorunma üsulu peyvənddir. Lakin virusla mübarizədə peyvənd qədər əhəmiyyətli olan vasitələri də gözardı etmək olmaz. Üç əsas qaydaya - maska taxmaq, sosial məsafəni qorumaq və sadə gigiyenik qaydalara riayət etməklə koronavirusdan qorunmaq mümkündür.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Faciənin ekran, səhnə və musiqi yaşantıları

Xocalı müsibəti bədii əsərlərdə öz təcəssümünü tapdıqca daha çox yaddaşlara yazılır. Hər il xalqımız, eləcə də dünya azərbaycanlılarının bu soyqırımı ilə bağlı keçirdiyi təbliğat xarakterli tədbirlər bəşəriyyəti erməni vəhşiliyinin şahidinə çevirir.




Xocalı faciəsinin baş verdiyi məqamları lentə almaq sözün əsl mənasında qəhrəmanlıq idi. Milli Qəhrəman Çingiz Mustafayevin və fədakar jurnalist-operator Seyidağa Mövsümovun həmin o müdhiş günlərdə qanlı faciənin ağrılı anlarını lentə almaları soyqırımının dünyaya təqdim edilməsində mühüm faktor kimi daim öndə olub. Bundan sonra faciə haqqında sənədli, son illər isə bədii filmlər yaradılaraq dünya ictimaiyyətinə bir neçə dildə təqdim edildi.

"Düşmən laylası" adlı qısametrajlı film Xocalı faciəsinin ağrıları haqqındadır. Film litvalı jurnalist Riçard Lapaitisin Xocalıya səyahəti kimi təqdim olunur. İllər öncə hərbi müxbir olan R.Lapaitis Dağlıq Qarabağ münaqişəsini və qanlı soyqırımı aktını işıqlandırıb. O, Xocalıda kütləvi qətliamdan sağ çıxmış insanlarla görüşüb. Ermənilərin atəşi altındakı "sonsuz dəhliz"də özünə nicat yolu axtararkən yaxınlarını itirənlərin ürəkdağlayan hekayətlərini dinləyib. Filmin müəllifi bu soyqırımının təşkilatçıları və icraçıları - erməni hərbi komandirləri ilə də söhbət edib.

Xocalı soyqırımından söz açan "Zülmətdən qaçarkən" sənədli filmi ABŞ-da Xocalı soyqırımı mövzusunda çəkilmiş ilk sənədli ekran əsəridir. Los-Anceles istehsalı olan və burada fəaliyyət göstərən yəhudi kinematoqrafçıları tərəfindən yaradılan həmin sənədli film Xocalı soyqırımının canlı şahidlərinin müsahibələrini diqqətə çatdırır.

"Müharibə uşaqları" və "Biz qayıdacağıq" kinolentləri də Xocalı soyqırımından bəhs edir. Rejissor Şamil Nəcəfzadənin çəkdiyi "Müharibə uşaqları" filmində faciə zamanı valideynlərini itirmiş yeddi uşağın taleyindən ağrılı notlarla söz açılır. Rejissoru Könül Kərimova olan "Biz qayıdacağıq" adlı ikinci filmdə Milli Qəhrəman Hikmət Nəzərlinin keçdiyi döyüş yolu işıqlandırılır.

Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında böyük xidmətləri olan Nüşabə Məmmədovanın ssenarisi əsasında lentə alınan "Haray" filmi Xocalı faciəsinin bədii kinoda dolğun ifadəsidir.

Xocalı soyqırımı haqda ilk bədii kinolardan biri sayılan "Fəryad"ın ssenari müəllifi kinorejissor Vaqif Mustafayev, quruluşçu rejissoru isə mərhum sənətkar, baş rolun ifaçısı Ceyhun Mirzəyev olub.

Rejissor Mərahim Fərzəlibəyovun çəkdiyi "Qırmızı qar" filmini də həyəcansız seyr etmək mümkün deyil. Xocalı və ümumiyyətlə, Qarabağ mövzusunda daha bir ekran əsəri də Elxan Qasımovun "Biz qayıdacağıq" filmidir. Film Xocalıdan olan yeniyetmə bir oğlanın həyatından bəhs edir.

"Xocalı" filminin müəllifi bədii kinonun imkanları çərçivəsində hadisələrin reallıqlarını tamaşaçıya çatdırır. Xocalı soyqırımına həsr edilən bir sıra ekran əsərləri var ki, onlardan biri də "Salnamə" kinostudiyasında çəkilən "Dua" və rejissor Mehriban Ələkbərzadənin "Xocalı soyqırımı" sənədli filmlərdir. "Azərbaycantelefilm"də lentə alınan "Xocalı", "Xocalı soyqırımı", "Xocalı şahidləri" kimi nümunələr, əlbəttə, tamaşaçılarda faciənin nəinki ağrısını yaşadır, eyni zamanda onu qan yaddaşına yazır.

Rejissor Elşən Zeynallının "Günəşin batdığı yer", Vahid Mustafayevin "Xoca" filmləri də bu qəbildən olan ekran əsərlərindəndir.

"Sonsuz dəhliz" isə litvalı rejissor Andreas Brokasın Xocalı qırğınından söz açan sənədli filmidir. Xatırladaq ki, İsveçin paytaxtı Stokholm şəhərində "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində ABŞ və Litvanın birgə istehsalı olan, çoxsaylı mükafatlar qazanmış "Sonsuz dəhliz" ("Endless Corridor") müstəqil sənədli filminin nümayişi beynəlxalq mediada böyük əks-səda doğurub.

Rejissoru Elmar Məlikov olan "Dəhliz", həmçinin ssenari müəllifi Altay Yaşar, rejissoru Elxan Cəfərov, bəstəkarı Nailə Mirməmmədli, operatoru Tanrıverdi Tanrıverdiyev olan "Düşmən laylası" qısametrajlı filmləri də Xocalı faciəsinin ağrılarını özündə əks etdirir. Xatırladaq ki, "Zülmətdən qaçarkən" sənədli filmi ABŞ-da Xocalı soyqırımı mövzusunda çəkilmiş ilk sənədli ekran əsəridir.

Xocalı soyqırımı bədii təcəssümünü, əlbəttə, kinofilmlərdə, ekran əsərlərində olduğu kimi, səhnədə də tapmaqdadır. Belə əsərlərdən biri də Akademik Milli Dram Teatrında faciənin növbəti ildönümü ilə bağlı təqdimatı keçirilmiş "Badam ağacı çiçəkləyəndə" tamaşasıdır. Tamaşa Akademik Milli Dram Teatrının səhnəsində Gənc Tamaşaçılar Teatrının yaradıcı heyəti tərəfindən ərsəyə gətirilib. Burada Gənc Tamaşaçılar Teatrının aktyor heyəti ilə yanaşı, kütləvi səhnələrdə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri də iştirak edirlər.

Tamaşanın "Badam ağacı çiçəkləyəndə" adlandırılması heç də təsadüfi deyil. Çünki badam çiçəkləməyə başlayan ilk ağacdır. "Xocalıya ədalət!" kampaniyasının loqosunda əks olunmuş badam çiçəyi də Azərbaycanın Dağlıq Qarabağ regionunun qədim yaşayış məskənlərindən olan Xocalıda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər tərəfindən törədilmiş soyqırımına münasibətdə ədalətin təmin edilməsinə və bu cür qəddar əməllərin təkrar olunmamasına ümidi əks etdirir.

Rejissor Gülnar Hacıyevanın quruluş verdiyi tamaşada əsas obrazları aktyorlardan Kərəm Hadızadə, Zemfira Əbdülsəməd, Mirzağa Mirzəyev, Elnur Kərimov, Asya Atakişiyeva, Güşvər Şərifova, Mehriban Hüseynova, Zülfiyyə Alhüseynova, Elşən Şıxəliyev və Manaf Dadaşov canlandırır.

Xocalı soyqırımı haqqında bir sıra mahnılar və musiqi kompozisiyaları da bəstələnib: Pyer Tilloyun "Xocalı 613" musiqi pyesi, Məmməd Quliyevin "Simfoniya - rekviyem", Aleksandr Çaykovskinin "Khojaly Requiem", Nəriman Məmmədovun "Xocalı" (7 saylı simfoniya), Elnarə Dadaşovanın "Xocalı laylası", "Dəyirman" və Toni Blekmenin "Justice for Khojaly", Qaraqanın "Xocalı", Nigar Camalın "Broken Dreams" mahnıları və s. kimi əsərlər faciənin dəhşətlərini dinləyicilərə musiqinin dili ilə çatdırır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## Siyəzən Suvarma Sistemləri İdarəsi
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci il tarixə kimidir. Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz. Əlaqələndirici şəxs: Məmmədli Hüseyn

Ünvan: Siyəzən şəhəri, D.Turabov küçəsi

E-mail: siyezenssi@mst.gov.az Tel.: (02330)4-12-93

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

LOT- 6: “Əsaslı təmir işləri üçün tikinti materiallarının satın alınması”

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT- 6 üzrə 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bank rekvizitləri: Siyəzən Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ07CTRE00000000000002356901**
**VÖEN: 7100019601**
**Bank: DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ 22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **02.04.2021-ci il saat 11:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron təqdim etməlidirlər. Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **12.04.2021-ci il saat 12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır. Tender təklifləri zərfləri **13.04.2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu “Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması” məqsədilə keçirilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində fiziki şəxs Amil Qinyaz oğlu Bayramov qalib müəyyən edilmişdir.

Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərenerji” ASC tərəfindən 29 oktyabr 2020-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elan edilmiş Kimyəvi maddələrin satın alınması üzrə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən “AZCHEM” MMC tenderin qalibi elan edilmişdir.

Qalib gələn təşkilatla ƏDV daxil 395 890,00 (üç yüz doxsan beş min səkkiz yüz doxsan manat 00 qəpik) AZN məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# “Buta Airways” Bakı-İstanbul-Bakı marşrutu üzrə reyslərə bilet satışına başlayır

Azərbaycanın “Buta Airways” aşağıbüdcəli aviaşirkəti Bakıdan Türkiyənin daha bir şəhərinə - İstanbula yerinə yetiriləcək xüsusi reyslərə aviabilet satışına başlayır. Martın 18-dən etibarən aviaşirkət Bakı-İstanbul-Bakı marşrutu üzrə aviaəlaqəni bərpa edir.

Aviaşirkətin Mətbuat xidmətinin verdiyi məlumata görə, uçuşlar “Sabiha Gökçen” (IATA: SAW) hava limanına həyata keçiriləcək. Aviaşirkət tərəfindən Türkiyənin ən böyük şəhərinə xüsusi reyslər həftədə iki dəfə - bazar ertəsi və cümə axşamı günləri yerinə yetiriləcək.

Ölkədəki epidemioloji vəziyyətlə əlaqədar tətbiq olunan məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - “Standart” və “Super”, “Standart” tarifinə (55 avrodan başlayaraq) çəkisi 10 kq-dan artıq olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 158 sm-dən böyük olmayan qeydiyyatdan keçən baqajın daşınması daxildir. “Super” tarifinə (75 avrodan başlayaraq) çəkisi 23 kq-dan artıq olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 158 sm-dən böyük olmayan qeydiyyatdan keçən baqajın, habelə çəkisi 10 kq-dan çox olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 118 sm-dən çox olmayan əlavə baqajın daşınması daxildir.

Hər iki tarifə ödənişsiz olaraq yer seçimi və hava limanında qeydiyyat opsiyaları daxildir.

Əl yükü qismində təyyarə salonuna yalnız qadın çantası, kişi portfeli, portativ kompüter çantası (təyinatı üzrə istifadə edilməsi şərtilə) və uşaq qidası götürülə bilər. Digər növ əl yükünün, o cümlədən “Duty Free” mağazalarından alınan əşyaların salona götürülməsi qadağandır.

Bakı-İstanbul-Bakı marşrutu üzrə reysə biletləri (“Super” və “Standart” tarifləri üzrə) aviaşirkətin rəsmi saytında, həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız “Super” tarifi üzrə) əldə edə bilərsiniz.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstəriləcəkdir.



Reyslərə mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Bakı-İstanbul istiqaməti üzrə reysin sərnişinləri:

- Türkiyə ərazisinə giriş hüququna malik olmalıdılar. Pandemiya dövründə Türkiyəyə giriş qaydaları ilə aviaşirkətin saytında aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz: https://www.butaairways.az/az/covid/turkey
- koronavirus infeksiyasının olmaması barədə tibbi arayış almalıdırlar. Azərbaycanda koronavirus infeksiyasına dair testdən keçə biləcəyiniz klinikaların siyahısı aviaşirkətin saytında dərc edilmişdir: https://www.butaairways.az/az/covid/clinics.

İstanbul-Bakı istiqaməti üzrə reysin sərnişinləri:

- Azərbaycan ərazisinə giriş hüququnun olub-olmadığını yoxlamalıdırlar. Azərbaycan ərazisinə giriş icazəsi olan şəxslərin siyahısı ilə aşağıdakı keçiddən istifadə etməklə tanış ola bilərsiniz: https://www.butaairways.az/az/covid/azerbaijan.
- koronavirus infeksiyasının olmaması barədə arayış almalıdırlar və ya QR-kod qeyd olunan COVID-19-a dair PCR-testinin mənfi nəticəsi barədə arayış təqdim etməlidirlər (QR-kodun həqiqiliyi qeydiyyat masalarında yoxlanılacaq). Türkiyədən uçuş zamanı “Memorial Sağlık Grubu”nun klinikalarından birində və ya ölkənin səhiyyə nazirliyinin saytında dərc olunmuş siyahıdakı klinikalarda test vermək mümkündür: https://covid19.saglik.gov.tr/TR-68720/covid-19-yetkilendirilmis-tani-laboratuvarlari-listesi.html

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, Bakıya aviareyslərlə gələn bütün sərnişinlər iki həftə ərzində özünütəcrid şəraitində qalmalıdırlar.

Hər iki istiqamət üzrə reyslərin sərnişinləri COVID-19 testinin nəticəsinin uçuşdan əvvəl 48 saat ərzində etibarlı olduğundan əmin olmalıdırlar.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə və ölkədəki epidemioloji vəziyyətlə əlaqədar olaraq sərnişinləri qarşılayan və yola salan vətəndaşlar terminal binasına buraxılmayacaq.

Qeyd etməliyik ki, Azərbaycanın aşağıbüdcəli aviadaşıyıcısı ötən ilin 6 dekabr tarixindən İzmir şəhərinə uçuşlar həyata keçirir, 19 mart tarixindən isə Tbilisiyə reyslər yerinə yetirməyə başlayacaq.

# Beynəlxalq aləm

## Almaniyada karantin martın 28-dək uzadıldı



Almaniyada karantin rejimi martın 28-dək uzadılmışdır. Müvafiq qərarı Kansler Angela Merkel və 16 vilayətin rəhbərləri qəbul etmişlər.

Eyni zamanda federal və yerli hakimiyyət orqanları martın 8-dən etibarən bəzi məhdudiyyətləri ləğv etməyi qərarlaşdırmışdır. Belə ki, kitab və gül mağazaları, bağ məhsulları mağazaları, gözəllik salonları, sürücülük məktəbləri və pilot məktəbləri açılacaq.

Qeyri-ərzaq mağazaları, mehmanxanalar, restoranlar və digər müəssisələr hələlik bağlı qalacaq. Məhdudiyyətlərin qaldırılması koronavirus infeksiyasının yayılmasının azalması ilə əlaqələndiriləcək. Virusun yayılmasının səviyyəsi aşağı düşsə digər mağazalar, muzeylər, zooparklar, botanika bağları və xatirə kompleksləri açıla bilər.

## Vaşinqton demokratiya naminə rejimləri devirməyi dayandıracaq



ABŞ rejimləri devirmək və hərbi müdaxilələr təşkil etməklə demokratiyanı zorla başqa ölkələrə sırımaq praktikasını dayandıracaq. “Financial Times” qəzeti xəbər verir ki, bu bəyanatla ABŞ-ın Dövlət katibi Entoni Blinken çıxış etmişdir.

“Biz baha başa gələn hərbi müdaxilələrin və ya avtoritar rejimləri zorla devirmək cəhdlərinin köməyi ilə demokratiyanı irəli aparmayacağıq. Bu taktikanı keçmişdə də sınamışıq. Xoş niyyətlərə baxmayaraq, bu, nəticə vermədi”, - deyə Blinken xarici siyasət strategiyasına həsr olunmuş iclasda qeyd etmişdir.

Qəzet nəzərə çarpdırmışdır ki, Prezident Co Baydenin administrasiyası sələfi Donald Trampın təcridçi və millətçi mövqeyindən fərqli olaraq, yeni xarici siyasət qurmağa çalışır. Baydenin rəhbərlik etdiyi ABŞ başqa ölkələrin işlərinə qarışan qlobal polis kimi çıxış etməkdən çəkinməklə dünya lideri mövqeyində qalmağa çalışacaq.

## ABŞ Senatı Prezidentin səlahiyyətlərini məhdudlaşdırmaq fikrinə düşüb



Amerikalı senatorlar ABŞ Prezidentinin hərbi güc tətbiq etmək səlahiyyətlərini məhdudlaşdırmaq fikrinə düşmüşlər. Müvafiq qanun layihəsinin müəllifləri demokrat Tim Keyn və respublikaçı Todd Yanqdır.

Qanunvericiliyin dəyişdirilməsinin səbəbi ABŞ hərbçilərinin Prezident Co Baydenin əmri ilə Suriyada həyata keçirdiyi hava hücumudur. Senatorların fikrincə, “hava hücumları göstərir ki, icra hakimiyyəti hərbi səlahiyyətlərini genişləndirməkdə davam edəcək”. Layihənin müəllifləri hesab edirlər ki, mövcud qanunlar ölkənin Yaxın Şərqdə iyirmi il “sonsuz müharibələr” aparmasına imkan verir.

Söhbət 2001-ci ilin sentyabrında ABŞ-da baş vermiş bir sıra terror aktlarından sonra Konqresin qəbul etdiyi təşəbbüsün ləğvindən gedir. Həmin təşəbbüsə görə, ABŞ Prezidenti qanunvericilərin razılığı olmadan hərbi güc tətbiq edə bilər.

ABŞ ordusu ötən ayın 26-na keçən gecə Suriya ərazisinə hava hücumu təşkil etmişdir. Hava hücumu azı 17 nəfərin ölümünə səbəb olmuşdur.

## Yəmən qiyamçıları Səudiyyə Ərəbistanını vurdular



Yəmən qiyamçıları (hövsilər) Səudiyyə Ərəbistanının Ciddə şəhərində “Saudi Aramco” neft-qaz şirkətinin obyektini raketlə vurmuşlar. Bu barədə “Röyter” agentliyi hövsilərin rəsmi nümayəndəsi Yəhya Səriyə istinadən xəbər verir. Ciddədəki neft emalı zavoduna hücum döyüş dronundan istifadə edilərək həyata keçirilmişdir. Hövsilərin nümayəndəsi hadisənin başqa təfərrüatlarını açıqlamamışdır.

Səudiyyə Ərəbistanının rəsmiləri dronun havada vurulduğunu bildirmişlər. Hücuma məruz qalmış zavod daxili bazara neft məhsullarının tədarükü ilə məşğuldur.

Qiyamçıların “Saudi Aramco”nun paylayıcı stansiyasına bundan əvvəlki hücumu keçən il noyabrın 23-də qeydə alınmışdır. O vaxt bir neçə nəfər zərər çəkmişdi.

## Qırğızıstan Prezidentinin “Facebook” səhifəsi dağıdıldı



Qırğızıstan Prezidenti Sadır Japarovun “Facebook” səhifəsi haker hücumuna məruz qalmışdır. Bu barədə dövlət başçısının mətbuat katibi Qalina Bayterek məlumat vermişdir.

Bayterekin dediyinə görə, naməlum şəxslər şəbəkədəki müxtəlif postlar altında Prezidentin adından təhqiramiz şərhlər yazmışlar: “Sadır Japarov cəmiyyətdə səsləndirilən bütün fikirlərə, o cümlədən tənqidi fikirlərə hörmətlə yanaşır, ona görə də belə açıqlamalar verməyi heç vaxt özünə rəva bilməzdi”.

İndi akkaunta girişi bərpa etmək mümkün olmuşdur.

## Baş Şirvan Kollektorun İstismarı İdarəsi
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixinə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: Əzizov Ərrəhman Barat oğlu (Plan istehsalat şöbə rəisi)

Ünvan: Şirvan şəhəri, H.Z.Tağıyev qəsəbəsi.

E-mail: **alirza.hebibov@mail.ru** 021-21-6-24-51

Tender səkkiz satınalma predmeti üzrə keçiriləcək.

- **Təmir işləri üçün tikinti materiallarının satın alınması.**
- **Maşın mexanizmləri, nəqliyyat vasitələri və mexaniki avadanlıqlar üçün ehtiyat hissələrin satın alınması.**
- **Maşın mexanizmləri üçün yağ və sürtkü materiallarının satın alınması.**
- **Nasos aqreqatları üçün ehtiyat hissələrinin satın alınması.**
- **Salyan rayonu kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi.**
- **Sabirabad, Hacıqabul rayonları ərazisində kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi.**
- **Ucar-Ağdaş rayonu ərazisində kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi.**
- **Göyçay rayonu ərazisində kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi.**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər satınalma predmeti üzrə 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Baş Şirvan Kollektorun İstismarı İdarəsi**
**H/h: AZ62CTRE00000000000002353001**
**VÖEN: 2100113541**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1400155071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: BİK CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **02.04.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **12.04.2021-ci il, saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **13.04.2021-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## İmişli Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tender 8-LOT üzrə keçirilir.

LOT-1: Əsaslı təmir üçün mal-materialların satın alınması (İştirak haqqı-100 AZN).

LOT-2: Cari təmir üçün mal-materialların satın alınması (İştirak haqqı-100 AZN).

LOT-3: Maşın mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması (İştirak haqqı-100 AZN).

LOT-4: Mexaniki avadanlıqların satın alınması (İştirak haqqı-100 AZN).

LOT-5: İmişli Suvarma Sistemləri İdarəsinin balansında olan suvarma kanallarının lildən təmizlənməi işlərinin satın alınması (İştirak haqqı -100 AZN).

LOT-6: 4 MK LR-100 Nov kanalının (PK00+00-PK50+00) üzərindəki qurğuların birlikdə əsaslı təmiri (1,0 km) işlərinin satın alınması (İştirak haqqı -100 AZN).

LOT-7: Ağammədli LR-100 Nov kanalının (PK00+00-PK23+00) üzərindəki qurğularla birlikdə əsaslı təmiri (0,5 km) işlərinin satın alınması (İştirak haqqı - 100 AZN).

LOT-8: Boztəpə kanalında (PK00+00) 3 qapılı baş qurğunun təmiri və Küng arx-1 LRN 80 nov kanalının (PK00+00-PK12+00) üzərindəki qurğularla birlikdə əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması (İştirak haqqı - 60 AZN).

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər LOT üzrə müəyyən olunan məbləğdə vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

**Ünvan: İmişli rayonu, Qaradonlu kəndi.**
**Bank rekvizitləri:**
**İmişli Suvarma Sistemləri İdarəsi**
**Hesab: AZ28CTRE00000000000002354001**
**VÖEN: 5500142121**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **02.04.2021-ci il saat 11:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər. Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **12.04.2021-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır. Tender təklifləri zərfləri **13.04.2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda qeyd olunan LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

**LOT 1:** Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün kompüter və printer avadanlıqlarının satın alınması;
**LOT 2:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların satın alınması;
**LOT 3:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan printer və surətçıxaran aparatlar üçün katriclərin və toner tozunun satın alınması;
**LOT 4:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması;
**LOT 5:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Mərkəzləşdirilmiş Kredit Reyestri sisteminin proqram platformasının dəstəklənməsi üzrə xidmətin satın alınması;
**LOT 6:** Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsinin dəstəklənməsi üzrə xidmətin satın alınması;
**LOT 7:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin proqram platformasının dəstəklənməsi üzrə xidmətin satın alınması;
**LOT 8:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Maliyyə savadlığı portalının proqram platformasının dəstəklənməsi üzrə xidmətin satın alınması;
**LOT 9:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Menecment informasiya sisteminin proqram platformasının dəstəklənməsi üzrə xidmətin satın alınması;
**LOT 10:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron xidmətlər portalının proqram platformasının dəstəklənməsi üzrə xidmətin satın alınması.

Tender proseduru 13 aprel 2021-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün "Asan Ödəniş" sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına hər bir iştirak edəcəyi LOT üzrə 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;
- dəstəklənmə xidmətlərinin göstərilməsi ilə bağlı müvafiq sahə üzrə ən azı 2 (iki) sertifikatlaşdırılmış mütəxəssisin olmasını təsdiq edən sənədlərin surəti (5-ci - 10-cu LOT-lar üzrə);
- Azərbaycan dilində tender təklifi (tender təklifi 31 may 2021-ci il tarixədək qüvvədə olmalıdır);
- tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);
- iddiaçının müvafiq tender predmeti üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);
- iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını 12 aprel 2021-ci il saat 18:00-a qədər, digər tələb olunan sənədləri isə ən geci 02 aprel 2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı:
LOT 1, LOT 2, LOT 3 və LOT 4: satınalma müqaviləsi imzalandığı gündən;
LOT 5: 24.04.2021-ci il tarixdən;
LOT 6: 09.11.2021-ci il tarixdən;
LOT 7 və LOT 8: 01.11.2021-ci il tarixdən;
LOT 9 və LOT 10: 25.04.2021-ci il tarixdən.

Malların təqdim edilməsi və xidmətlərin göstərilməsi (işlərin görülməsi) müddəti:
LOT 1 və LOT 2: satınalma müqaviləsi imzalandığı gündən etibarən 45 (qırx beş) iş günü müddətində;
LOT 3 və LOT 4: satınalma müqaviləsi imzalandığı gündən etibarən sifarişçinin sifarişi əsasında 1 (bir) il müddətində;
LOT 5, LOT 6, LOT 7, LOT 8, LOT 9 və LOT 10: dəstəkləmə üzrə xidmətin göstərilməsinə başlama tarixindən 1 (bir) il müddətində.

Qiymətləndirmə meyarları:
LOT 1: qiymət və texniki amillər (zəmanət müddəti və malların çatdırılma müddəti);
LOT 2: qiymət və lisenziyaların çatdırılma müddəti;
LOT 3: qiymət və malların çatdırılma müddəti;
LOT 4: qiymət və zəmanət müddəti;
LOT 5, LOT 6, LOT 7, LOT 8, LOT 9 və LOT 10: qiymət amili.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tender elan edir*

Abşeron DOST Mərkəzinin inzibati binasında divarların süni yaşıllıqlarla üzlənməsi, bədii-tərtibat elementlərinin, reklam qurğularının hazırlanması və quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Ələmqulu Quliyev (012 525-50-26 #9236)

**İştirak haqqı : LOT üzrə 200 ( iki yüz) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi 04.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış arayış olması mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 04.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığın, təcrübənin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.04.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12.04.2021-ci il 15:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **13.04.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Bakı Metropoliteni"QSC 2021-ci il "Bakı Metropoliteni" QSC üçün katriclərin satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir - 2021-ci il "Bakı Metropoliteni" QSC üçün katriclərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01)

**İştirak haqqı - 150 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02 aprel 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12 aprel 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **13 aprel 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
### *açıq tender elan edir*

LOT 1. Qəbələ rayonunda yerləşən Yengicə su anbarı ilə bağlı hazırlanmış texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin ekspert qiymətləndirilməsi xidmətinin satın alınması.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İştirak haqqının ödənilməsi yalnız **"ASAN ödəniş"** vasitəsilə həyata keçirilə bilər. İştirak etmək istəyənlər müsabiqəyə daxil olduqdan sonra "Asan ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə **300 manat məbləğində iştirak haqqını** ödəyərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Musayev Azad. Əlaqə tel: 493-88-67 dax/n: (22-82). Ünvan: Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə təsdiqedici sənəd;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri (iddiaçıların hüquqi sənədlərinin surəti notarial qaydada təsdiq olunmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektinə aid edilməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının analoji işlərdə təcrübəsi, maddi-texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
- *iddiaçının son beş ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə rəsmi məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla tələb olunan digər sənədləri **01.04.2021-ci il saat 11:00-a** qədər, tender təklifi (tender təklifinin məbləği manat ilə təqdim edilməlidir və zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır) ilə bank təminatı (tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır) sənədlərini **09.04.2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.04.2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 06 fevral 2021-ci il tarixli nömrəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Samur-Abşeron Kanalının İstismarı İdarəsinin büdcə vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə nəqliyyat vasitələrinin və mexanizmlərin ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayı 3 (üç) iştirakçıdan az olduğu üçün ləğv olunur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi
**ŞURA MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi
**ŞURA MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi
**ŞURA MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanovaya əzizi
**AMALYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi
**ŞURA MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi
**ŞURA MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Mərkəzi Klinika Xəstəxanasının baş həkimi Kamran Musayevə qızı
**DİLAYIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sübahir Qurbanov ailəsi ilə birlikdə Fuad Abbasova anası
**SEVİL XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5239
Sifariş 424
Qiyməti 40 qəpik